QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

# SƏS



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 059 (5531) 29 **mart** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiymət 40 qəpik**




# İşıqlı və firavan gələcəyimiz naminə İlham Əliyevə səs verək!



5

"Seçicilərin böyük əksəriyyəti İlham Əliyevə səs verəcək"



14

Milli xain Tural Sadıqlı haqqında hansı faktlar üzə çıxdı?



14

"İŞİD"i Azərbaycana dəvət edən İnqilab Kərimovun 30 milyonluq etirafı






# İlham Əliyev: "Bu gün İran-Azərbaycan əlaqələri ən yüksək zirvəyə çatıb"



Martın 28-də Azərbaycan Respublikasına rəsmi səfərə gələn İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin rəsmi qarşılanma mərasimi olub. AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda İran Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İran İslam Respublikasının Prezidenti Həsən Ruhanini qarşılayıb.

Rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin təkbətək görüşü olub. Dövlət başçıları görüşdə çıxış ediblər.

**Prezident İlham Əliyev:**

-Hörmətli cənab Prezident, Azərbaycan xoş gəlmisiniz. Sizi görməyimə çox şadam. Əminəm ki, səfər çox uğurlu olacaq, İran-Azərbaycan dostluq və qardaşlıq əlaqələri inkişaf edəcək. Bizim aramızda çox sıx əlaqələr mövcuddur. Bütün sahələr üzrə çox yaxşı əməkdaşlıq edirik. Həm siyasi, həm iqtisadi, mədəni, enerji, nəqliyyat - bütün sahələrdə yaxşı nəticələr var və bu gün imzalanacaq sənədlər əlaqələrimizin inkişafına yeni təkan verəcək. Bizim görüşlərimiz müntəzəm olaraq keçirilir. Görüşlər zamanı əldə edilmiş razılaşmalar, verdiyimiz tapşırıqlar yerinə yetirilir.

*Ardı Səh. 3*

# İlham Əliyev: “Bu gün İran-Azərbaycan əlaqələri ən yüksək zirvəyə çatıb”



Əvvəli-Səh-2

Bunun nəticəsində bu gün İran-Azərbaycan əlaqələri ən yüksək zirvəyə çatmışdır. Bir daha xoş gəlmisiniz.

x x x

Prezident Həsən Ruhani:

-Çox şadam cənab Prezident. Biz bu Novruz bayramı günlərində Sizin ölkənizin və xalqınızın qonağıyıq. Regionun iki böyük milləti, iki böyük xalqı ortaq tarix və mədəniyyətə sahibdir. Eyni zamanda, ortaq məqsədlər də müəyyənləşdirilib ki, qarşıdakı hədəflərə nail olunsun. Çox sevinirəm ki, hər dəfə Sizinlə görüşürük. Bunun şahidi oluruq ki, iki ölkənin əlaqələrində inkişaf əldə etmişik. Ötən bir neçə ildə biz onuncu dəfədir ki, görüşürük, yəni, üzbəüz görüşürük. Bu da göstərir ki, iki ölkənin əlaqələri səmimiyyətə söykənir. Keçmişdə razılaşdığımız məsələlər bu gün öz töhfəsini verir və sabah da biz bir neçə açılışın şahidi olacağıq. Bu dəfəki səfərimizdə də əldə edəcəyimiz razılaşmalar qətiyyətlə deyə bilərəm ki, iki ölkənin əlaqələrinin inkişafına xidmət edəcək. Biz Azərbaycanın təhlükəsizliyini və suverenliyini öz təhlükəsizliyimiz və suverenliyimiz hesab edirik. İki dövlət, iki millət və iki xalqın iradəsi ilə biz bu əlaqələri daha da inkişaf etdirəcəyik. Zati-alinizin və xalqınızın qonaqpərvərliyinə görə bir daha təşəkkür edirəm. Təkbətək görüş başa çatandan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olub. Martın 28-də geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin iştirakı ilə sənədlərin imzalanması mərasimi olub. AZƏRTAC xəbər verir ki, “Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ilə İran İslam Respublikasının Qadın və Ailə Məsələləri üzrə Vitse-Prezidentliyi arasında Əməkdaşlıq haqqında İcra Proqramını”nı Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova və İran İslam Respublikası Prezidentinin ailə və qadın məsələləri üzrə müavini Məsumə İbtikar imzaladılar.

“Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi ilə İran İslam Respublikasının İdman və Gənclər Nazirliyi arasında gənclər və idman sahələrində əməkdaşlıq haqqında Anlaşma Memorandumunun 2018-2019-cu illər üzrə İcra Planı”nı Azərbaycan Respublikasının gənclər və idman naziri Azad Rəhimov və İran İslam Respublikasının idman və gənclər naziri Məsud Sultanifər imzaladılar. “Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə İran İslam Respublikasının Mədəniyyət və İslami İrşad Nazirliyi arasında 2018-2021-ci illər üçün Mədəniyyət və İncəsənət üzrə Mübadilə Proqramı”nı Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri Əbülfəs Qarayev və İran İslam Respublikasının Mədəniyyət və İslami Əlaqələr Təşkilatının sədri Əbüzər İbrahimi Türkman imzaladılar.

“Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi ilə İran İslam Respublikasının Səhiyyə, Müalicə və Tibbi Təhsil Nazirliyi arasında səhiyyə və tibb elmi sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumuna dair Fəaliyyət Proqramı”nı Azərbaycan Respublikasının səhiyyə naziri Oqtay Şirəliyev və İran İslam Respublikasının səhiyyə nazirinin müavini İrəc Hərirçi imzaladılar. “Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə İran İslam Respublikasının Neft Nazirliyi arasında Xəzər dənizində müvafiq blokların birgə işlənilməsi haqqında Anlaşma Memorandumu”nu Azərbaycan Respublikasının energetika naziri Pərviz Şahbazov və İran İslam Respublikasının neft naziri Bijən Namdar Zəngənə imzaladılar.

“Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə İran İslam Respublikasının Sənaye, Mədən və Ticarət Nazirliyi arasında sənaye sahəsində əməkdaşlığın möhkəmləndirilməsi haqqında Anlaşma Memorandumu”nu Azərbaycan Respublikasının iqtisadiyyat naziri Şahin Mustafayev və İran İslam Respublikasının sənaye, mədən və ticarət naziri Məhəmməd Şəriətmədari imzaladılar.

“Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə İran İslam Respublikasının İqtisadi İşlər və Maliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu”nu Azərbaycan Respublikasının iqtisadiyyat naziri Şahin Mustafayev və İran İslam Respublikasının iqtisadiyyat və maliyyə naziri Məsud Kərbasiyan imzaladılar. “Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında İran İslam Respublikası ərazisində Astara-Rəşt dəmir yolu hissəsinin tikintisinin maliyyələşdirilməsi haqqında Saziş”i Azərbaycan Respublikasının iqtisadiyyat naziri Şahin Mustafayev və İran İslam Respublikasının iqtisadiyyat və maliyyə naziri Məsud Kərbasiyan imzaladılar.

Sənədlərin imzalanması mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və İran İslam Respublikasının Prezidenti Həsən Ruhani mətbuata bəyanatlarla çıxış ediblər. Martın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından ölkəmizdə rəsmi səfərdə olan İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin şərəfinə rəsmi qəbul təşkil edilib.





# “Son illər Azərbaycan ilə İran həm ölkələrimiz, həm də region üçün vacib olan birgə layihələr həyata keçirirlər”

## *Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva İran Prezidentinin qadın və ailə məsələləri üzrə müavini ilə görüşüb*





***Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva martın 28-də İran İslam Respublikası Prezidentinin qadın və ailə məsələləri üzrə müavini Məsumə İbtikar ilə görüşüb.***

AZƏRTAC xəbər verir ki, İran İslam Respublikasının nümayəndə heyətini ölkəmizdə görməkdən məmnunluğunu bildirən Birinci vitse-prezident Mehriban Əliyeva ölkələrimiz arasında əlaqələrin tarixən dostluğa və qardaşlığa əsaslandığını bildirdi, bu əlaqələrin bir çox sahələri, o cümlədən siyasi və mədəniyyət sahələrini əhatə etdiyini vurğuladı. Mehriban Əliyeva Azərbaycanın və İranın dövlət başçıları arasında keçirilən görüşlərin ölkələrimizin əlaqələrinin möhkəmlənməsinə xidmət etdiyini bildirdi. “Son illər Azərbaycan ilə İran həm ölkələrimiz, həm də region üçün vacib olan birgə layihələr həyata keçirirlər”, - deyən Birinci vitse-prezident nəqliyyat sahəsindəki əlaqələri xüsusi qeyd etdi və bu gün İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin Bakıya səfəri çərçivəsində iki ölkə arasında Rəşt-Astara dəmir yolu ilə bağlı imzalanacaq layihənin həm Azərbaycana, həm də İrana fayda verəcəyini bildirdi.

İran Prezidentinin qadın və ailə məsələləri üzrə müavini Məsumə İbtikar ölkəmizə səfərindən məmnunluğunu bildirdi, Azərbaycan ilə İran arasında münasibətlərin, bütün sahələrdə qurulan əlaqələrin gücləndiyini dedi və bu əlaqələrin iki xalqın rifahına xidmət etdiyini vurğuladı. Qonaq iki ölkə arasında iqtisadi sahədə əlaqələrdən danışaraq xüsusilə nəqliyyat sahəsində böyük layihələrin həyata keçirildiyini qeyd etdi. Bildirdi ki, mədəniyyət sahəsində əlaqələrin genişləndirilməsi böyük önəm daşıyır. Qonaq ailə və qadın məsələləri sahəsində də əlaqələrin genişlənməkdə olduğunu diqqətə çatdırdı. Məsumə İbtikar Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun ictimai və sosial sahədə həyata keçirdiyi layihələri qeyd edərək, bu layihələrin uğurla icra olunduğunu vurğuladı.

# Birinci vitse-prezident Mehriban Əliyeva Rusiyanın Azərbaycandakı səfirliyində olub



**Martın 28-də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Rusiya Federasiyasının Kemerovo şəhərinin ticarət mərkəzində baş vermiş yanğında çoxsaylı insan tələfatı ilə əlaqədar Rusiyanın ölkəmizdəki səfirliyinə gələrək başsağlığı verib. AZƏRTAC xəbər verir ki, Mehriban Əliyeva Kemerovo şəhərinin ticarət mərkəzində baş vermiş yanğında həlak olanlarla əlaqədar matəm kitabına ürək sözlərini yazdı.**

Çoxsaylı insan tələfatı ilə nəticələnən yanğın xəbərinin ölkəmizdə böyük kədər hissi ilə qarşılandığını deyən Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva həlak olanların doğmalarına və yaxınlarına dərin hüznlə başsağlığı verdi, hadisə zamanı xəsarət alanlara şəfa arzuladı. Rusiyanın Azərbaycandakı səfirliyinin hərbi, hərbi-hava və hərbi-dəniz attaşesi İqor Lobastev səfirliyə gələrək başsağlığı verdiyinə və bu ağır günlərdə Rusiya xalqı ilə birlikdə olduğuna görə Birinci vitse-prezident Mehriban Əliyevaya Rusiyanın Azərbaycandakı səfirliyi və xalqı adından minnətdarlıq edərək dedi:

-Rusiya Federasiyasının səfirliyi, bütün Rusiya xalqı adından şəxsən Sizə vaxt tapıraq bizim diplomatik nümayəndəliyimizə gəldiyinizə, bu günlərdə bizimlə, bütün Rusiya xalqı ilə olduğunuza görə minnətdarıq.

Azərbaycan xalqının həlak olanların doğmalarının kədərini bölüşdüyünü bildirən Birinci vitse-prezident Mehriban Əliyeva dedi:

-Vurğulamaq istərdim ki, bütün insanlar kədər içindədirlər. Mən insanlarla çox görüşürəm, hamı bu faciədən danışır. Həqiqətən də bu dərdi səmimi qəlbdən bölüşürlər. Hərçənd həlak olanların yaxınlarının nələr çəkdiyini təsəvvür etmək çətindir. Allah onlara səbir və güc versin.

Hərbi attaşe İqor Lobastev Azərbaycan Prezidenti İlham Əliyevə minnətdarlığını bildirərək dedi:

-Biz bu hadisə ilə əlaqədar səmimi qəlbdən ilk başsağlığı verənlərdən biri kimi Azərbaycan Prezidenti İlham Əliyevə də minnətdarlığımızı bildiririk. Əminik ki, Rusiya və Azərbaycan həmişə birlikdə olmalıdırlar.

Mehriban Əliyeva: Sözsüz. Əsl dostlar üçün sınaq da elə budur: həm sevincli, həm də ağır anlarda birlikdə olmaq və bir-birini dəstəkləmək.

İqor Lobastev: Sağ olun.

Mehriban Əliyeva: Sağ olun.

# "Seçicilərin böyük əksəriyyəti İlham Əliyevə səs verəcək"

Bu il aprelin 11-də keçiriləcək Prezident seçkiləri ilə bağlı ABŞ-ın "AJF-&Associates, Inc." təşkilatı və "Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası" tərəfindən təşkil ediləcək "Exit-poll" öncəsi keçirilmiş sosioloji araşdırmanın nəticələri açıqlanıb. SİA-nın verdiyi xəbərə görə, araşdırmanın nəticələrini Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqasının sədri Sahib Məmmədov və "AJF&Associates, Inc." təşkilatının sədri Corc Birnbaum təqdim edib. Qeyd olunub ki, sosioloji sorğunun keçirilməsində əsas məqsəd Prezident seçkiləri ərəfəsində əhalinin səsverməyə hazırlığı və onların ölkənin siyasi həyatında iştirak səviyyəsinin, seçkilərlə bağlı ictimai rəyin öyrənilməsi olub.

Sorğuya ümumilikdə Azərbaycanın müxtəlif rayonlarından 1500 nəfər respondent cəlb edilib. Bunlardan 63,5% (952 nəfər) böyük şəhərlərdən, 17,6% (264 nəfər) kiçik şəhərlərdən, qalanları isə qəsəbə və kəndlərdən olub. Sorğuda iştirak edənlərin 49,9% (748 nəfəri) qadın, 50,1% (75 nəfəri) kişi olub. Sorğu ölkə əhalisinin yaş statistikası nəzərə alınaraq aparılıb və respondentlərin 30,4 % (456 nəfəri) 18-29 yaş arası (450 nəfəri) - 30% 30-39 yaş arası, 19,5% (292 nəfəri) 40-49 yaş arası, 11,5% (173 nəfəri) 50-59 yaş arası, 5,6% (84 nəfər) 60-69 yaş arası və yalnız 2,9% (44 nəfəri) 70 və daha yuxarı yaşda insanlar olublar.

Əhalinin Prezident seçkiləri ilə bağlı məlumatlılıq səviyyəsinin öyrənilməsi məqsədilə qoyulmuş "Ümumiyyətlə, Azərbaycanda Milli Məclisə Seçkilər və ya prezident seçkilərində Siz necə iştirak edirsiniz?" - sualına verilən cavablar aşağıdakı kimi olub.

Respondentlərin böyük əksəriyyəti - 74,0% (1110 nəfər) "həmişə" seçkilərdə iştirak etdiklərini bildiriblər. 10% (150 nəfər) respondent isə 11 aprel 2018-ci il Prezident seçkilərində "ilk dəfə" iştirak edəcəyini bildirib. 12,6% (189 nəfər) respondent seçkilərdə "bəzən", yaxud "nadir hallarda" iştirak etdiklərini göstəriblər. Anket sorğusunun I blokuna aid olan suallar seçicilərin iqtidar, yaxud müxalifət meylli olma imkanlarını açmağa imkan verir. Belə ki, "Əgər prezident seçkiləri bu gün keçirilsə idi və namizədlər aşağıdakı şəxslər olsaydı, kimə səs verərdiniz?"

Sual 8-ə və - "Əgər parlament seçkiləri bu gün keçirilsə idi, hansı partiyanın namizədinə səs verərdiniz?" Sual 9-a alınan cavablar - İlham Əliyev 82,9 % (1244 nəfər) və Yeni Azərbaycan Partiyasının 70,9% (1064 nəfər) respondent tərəfindən, demək olar ki, böyük əksəriyyətlə qeyd edilməsi azərbaycanlıların mövcud hakimiyyətin



fəaliyyətindən razı olduqlarını və bu hakimiyyəti dəstəklədiklərini göstərir. "Hazırkı hökumətin işini necə qiymətləndirirsiniz?" sualına alınmış cavablar "əla" - 28,9 % (433 nəfər), "yaxşı" - 27,1% (406 nəfər), "orta"-19,9%(299 nəfər)- da gəldiyimiz qənaətin düzgün olduğunu sübut edir.

Belə ki, bu cavablar hər biri ayrılıqda müsbət cavablardır və ümumiikdə, 75,9% (1138 nəfər) respondentin hazırki hökumətin fəaliyyətini qənaətbəxş qəbul etdiyini deyə bilərik. Sual 10 - "Aşağıdakı fikirlərin doğru olub-olmadığını deyə bilərsinizmi?" - əhalinin müasir hökumətin fəaliyyətinə münasibətinin açıq ifadəsidir. Belə ki, alınan cavablar - "Azərbaycanın iqtisadiyyatı güclüdür" - 62, 5% (937 nəfər), "Azərbaycanda söz azadlığı var" - 65% (975 nəfər), "ölkə rəhbərliyi xalqı terrordan qoruyur" - 63,6% (954 nəfər), "biz bir siyasi liderin rəhbərliyi altında birləşsək, Azərbaycan daha güclü olar" - 62,5% (938 nəfər), "Azərbaycanda insan hüquqları qorunur" - 62% (930 nəfər), "Azərbaycan regionda sabitlik adasıdır" -63,1% (946 nəfər) əhalinin mövcud iqtidarın hakimiyyətinə olan inamını və dəstəyini əks etdirir.

Bu bloka daxil olan " Prezident İlham Əliyevə münasibətlə " bağlı sual 11-ə verilən cavablar seçicilərin siyasi meyli və səsvermənin nəticələri haqqında fikir söyləməyə imkan verir. Belə ki, İlham Əliyevin prezidentlik fəaliyyətinə münasibət olaraq, "iqtisadiyyatı təkmilləşdirir"-58,7% (881 nəfər), "vətəndaşların qayğısına qalır", "miqrant böhranının Azərbaycana keçməsinin qarşısını alır" -61% (915 nəfər), "Azərbaycanı beynəlxalq aləmdə yaxşı təmsil edir"-75% (1125 nəfər), "Ölkəmizin təhlükəsizliyini qoruyur"-60,7% (911 nəfər), miqrant böhranının Azərbaycana keçməsinin qarşısını alır-58% (870 nəfər) qeyd edilib.

"Beləliklə, bilavasitə prezident İlham Əliyevin fəaliyyətinə münasibətlə bağlı ictimai rəyin öyrənilməsinə yönəlmiş "exit-poll" öncəsi sorğunun nəticələrinə əsasən deyə bilərik ki, əhali İlham Əliyevin hakimiyyətinə inanır və onun siyasi xəttini dəstəkləyir. Aparılmış sosioloji sorğunun nəticələri göstərdi ki, 11 aprel 2018-ci il Prezident seçkilərinə hazırlıq həm hakimiyyət, həm də əhali səviyyəsində qənaətbəxşdir. Əhali Prezident seçkiləri ilə bağlı məlumatlıdır və bu, dövlət səviyyəsində aparılan təbliğatın müsbət gedişindən xəbər verir. Inanırıq ki, 11 aprel 2018-ci ildə ölkədə Prezident seçkiləri zamanı keçiriləcək "exit-poll" sorğularının nəticələri apardığımız sosioloji sorğunun nəticələri ilə uyğun olacaq", - təşkilatçılar bildiriblər.

# Prezident seçkiləri ilə əlaqədar veb-kameralara texniki nəzarət mərkəzinə baxış keçirilib



***2018-ci il aprelin 11-nə təyin edilmiş Azərbaycan Respublikası Prezidentinin seçkilərinin yüksək səviyyədə təşkil olunub azad, ədalətli və şəffaf keçirilməsi üçün nəzərdə tutulan çoxsaylı irimiqyaslı layihələrin reallaşdırılması istiqamətində atılan addımlar artıq yekunlaşmaq üzrədir.***

AZƏRTAC xəbər verir ki, martın 28-də Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov və nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə Komissiyanın inzibati binasındakı veb-kameralara texniki nəzarət mərkəzinə baxış keçirib və veb-kameraların quraşdırılması ilə bağlı son hazırlıq işləri ilə tanış olublar.

Bildirilib ki, indiyədək ölkəmizdə keçirilən bütün seçkilər çoxsaylı aşkarlıq institutlarının, xüsusilə yerli və beynəlxalq müşahidəçilərin, yerli və xarici kütləvi informasiya vasitələrinin yaxından iştirakı ilə xarakterizə olunub. Respublikamızda keçirilən seçkilərdə şəffaflığın beynəlxalq standartlara uyğun, yüksək səviyyədə təmin olunması üçün digər vasitələrlə yanaşı, informasiya-kommunikasiya texnologiyalarının ən son nailiyyətləri də uğurla tətbiq edilir ki, bu da seçkilərlə bağlı bütün prosesləri əvvəldən axıradək fasiləsiz izləməyə, azad və maneəsiz müşahidə aparmağa və beləliklə, aşkarlığın daha dolğun təminatına imkan verir. Azərbaycan müşahidəçilərin sərbəst fəaliyyəti üçün yaradılan geniş və hərtərəfli imkanlar baxımından nümunə ola bilər.



Bu il də respublikamızın ictimai-siyasi həyatında mühüm hadisə olan prezident seçkilərində müxtəlif metod və vasitələrdən istifadə etməklə şəffaflığın təmin olunmasına xüsusi diqqət yetirilib. Azərbaycanda artıq 10 ildir ki uğurla tətbiq olunan və seçki məntəqələrinə getmədən, internet vasitəsilə səsvermə prosesini birbaşa izləməyə imkan verən veb-kameralardan istifadə təcrübəsi cari il prezident seçkilərində də davam etdiriləcək. Seçki günü - aprelin 11-də seçki məntəqələrində proseslərin tamamilə müşahidə edilməsi məqsədilə bütün ölkə coğrafiyasını əhatə edən 1000 seçki məntəqəsində (təqribən 20 faiz) veb-kamera quraşdırılıb. Veb-kameralar vasitəsilə keyfiyyətli və fasiləsiz yayım imkanlarının təmin edilməsi üçün kameraların quraşdırılması, tənzimlənməsi və digər texniki parametrlərin daha da təkmilləşdirilməsi mütəmadi qaydada diqqət mərkəzində saxlanılır. Seçki günü internet istifadəçiləri həm ölkə daxilindən, həm də ölkə xaricindən MSK-nın rəsmi internet səhifəsinə daxil olmaqla heç bir qeydiyyat tələb olunmadan səsvermə prosesi, səslərin sayılması və nəticələrin müəyyənləşdirilməsini arasıkəsilmədən birbaşa müşahidə etmək imkanına malik olacaqlar.

## "Azərbaycanlıların soyqırımı 200 il əvvəldən başlayıb"



Ermənilərin azərbaycanlılara qarşı soyqırımı siyasəti 200 il əvvəldən başlayıb. SİA-nın verdiyi məlumata görə, bunu jurnalistlərə açıqlamasında Dini Qurumlarla iş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı deyib. Onun sözlərinə görə, erməni vəhşiliklərini gənc nəsil müxtəlif dillərdə dünyaya yaymalıdır: "Bunun üçün gənc nəslin kifayət qədər imkanı var. Gənc nəsil bu imkanlardan yararlanmalı, məsələni diqqətdə saxlamalıdır. Çünki bizim düşmənlə müharibəmiz bitməyib. Diplomatik cəhətdən biz ermənilər üzərində üstünlük əldə edə bilmişik. Ən əsası, ermənilər münaqişə ilə bağlı saxta faktları dünyaya tanıtdıra bilməyib, buna imkan verməmişik. Ermənistan tərəfindən Azərbaycan torpaqlarının işğal edilməsi burmənalı təsdiqlənir. Ermənilərin saxta faktları ifşa olunub".

M. Qurbanlı bildirib ki, ermənilərin Xocalıda törətdiyi vəhşiliklər dünya ictimaiyyətinə çatdırılıb: "Ermənilər bunu hərbi əməliyyat kimi qələmə vermək istəsə də, bu cəhdləri baş tutmayıb. Çünki burda dinc əhaliyə tutulan divan faktlarla dünyaya çatdırılıb. Ermənilər dinc əhaliyə qarşı soyqırımı törədib".

## Mixail Neyjmakov: "11 aprel seçkiləri Azərbaycanın mövqelərini daha da möhkəmləndirəcək"

Aprelin 11-də keçiriləcək prezident seçkilərinə az müddət qalıb. Azərbaycanda seçkiöncəsi mühit sabitdir. Seçkilərə hazırlıq, təşviqat işi ölkə qanunvericiliyinə uyğun həyata keçirilir. AZƏRTAC xəbər verir ki, bu fikirləri sechki-2018.az saytına açıqlamasında Rusiyanın Siyasi və İqtisadi Kommunikasiyalar Agentliyinin aparıcı analitiki Mixail Neyjmakov deyib. M.Neyjmakov bildirib ki, seçkilərdən sonra Azərbaycanda siyasi sahə ilə yanaşı, digər sahələrdə də yeni islahatların aparılması gözlənilir. "Düşünürəm ki, 11 aprel seçkiləri Azərbaycanın mövqelərini daha da möhkəmləndirəcək", - deyə analitik vurğulayıb.



# Xalq İlham Əliyevə "HƏ" deyir!

## Şəki seçiciləri daha uğurlu gələcəyə səs verəcəklər





11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkilərinin təbliğat - təşviqat kampaniyası çərçivəsində 842 nəfərdən yuxarı seçicisi olan Şəki rayonu Bideyiz kəndində Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Şəki rayon şöbəsinin təbliğat qrupunun iştirakı ilə seçicilərlə növbəti görüş keçirilib. Görüşü giriş sözü ilə Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Şəki rayon şöbəsinin sədri Həsən Həsənov açaraq, prezidentliyə namizəd Cənab İlham Əliyevin xalq və dövlət üçün gördüyü xeyirli işlərdən, Azərbaycanın beynəlxalq aləmdə artan nufuzundan və iqtisadi inkişafdan danışıb. H.Həsənov seçiciləri əldə olunan uğurların davam etdirilməsi üçün11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkilərində fəal olmağa və Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Tədbirdə Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Şəki rayon şöbəsinin təbliğat qrupunun üzvləri Kamil Məmmədov, Nuralı Çələbiyev, Sərdar Şərifov və Qabil Qədimov çıxış edərək, prezidentliyə namizəd Cənab İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi 15 il ərzində gördüyü işlər, Azərbaycan dövlətçiliyinin inkişafı və xalqımızın rifahı naminə sonsuz xidmətlərdən danışıb və görüş iştirakçılarını bu uğurların davam etdirilməsi üçün Cənab İlham Əliyevə səs verməyə səsləyiblər. Tədbirdə çıxış edən Bideyz kənd sakinləri Xasıyev Əziz, Məhyəddinova Nazənin, Səmədov Aftıxaliq və Kərimli Sahib kənd sakinlərinin artıq öz seçimlərini etdiklərini, 11 aprel tarixdə xalqımızın layiqli oğlu Cənab İlham Əliyevə səs verəcəklərini bildiriblər.

## Xızı seçiciləri gələcəyə inamla və İlhamla irəli deyirlər



YAP Xızı rayon təşkilatında prezidentliyə namizəd Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində Giləzi qəsəbəsində seçicilərlə növbəti görüş keçirilib. Görüşdə YAP Xızı rayon təşkilatının sədri Fərrux Haqverdiyev və "Səs" qəzetinin Baş redaktoru Bəhruz Quliyev iştirak ediblər.

Görüşdə YAP Mərkəzi Seçki Qərargahının Xızı rayon şöbəsinin sədri F.Haqverdiyev çıxış edərək bildirib ki, Azərbaycan növbəti siyasi-ictimai hadisə - prezident seçkiləri ərəfəsindədir və bu gün ölkədə aparılan genişmiqyaslı inkişaf və tərəqqi işləri son 15 ildə reallaşdırılan uğurların sübutudur: "Belə ki, əldə edilən hər bir uğur bilavasitə Cənab İlham Əliyevin apardığı mütərəqqi və məqsədyönlü siyasətin bariz nəticəsidir və biz xızılılar da həmin siyasətin ətrafında sıx birləşərək, Onun namizədliyinə birmənalı dəstək göstərməkdəyik." Natiq aprelin 11-də seçiciləri fəal olmağa və Yeni Azərbaycan Partiyasının namizədi İlham Heydər oğlu Əliyevə səs verməyə çağırıb. Görüşdə çıxış



edən "Səs" qəzetinin Baş redaktoru Bəhruz Quliyev vurğulayıb ki, Azərbaycanda son illər ərzində aparılan mütərəqqi daxili və xarici siyasətin nəticəsində, ölkəmiz beynəlxalq aləmdə söz sahibinə çevrilib: "İstər regional, istərsə də beynəlxalq layihələrin ardıcıllıqla həyata keçirilməsi hər bir azərbaycanlının daha firavan, daha xoşbəxt yaşaması naminə atılan addımlardır və bütün bunlar Cənab İlham Əliyevin yorulmaz fəaliyyətinin bariz nümunəsidir ki, Azərbaycanın davamlı inkişafı da həmin faktorları kifayət qədər təsdiq edir."

Ardı Səh. 7




# Xalq İlham Əliyevə "HƏ" deyir!

Əvvəli-Səh-6

Bəhruz Quliyev çıxışında bildirib ki, İlham Əliyev Cənablarının əsas məqsədi xalqına xidmət etməkdir: "O, ölkəmizin daha güclü inkişaf etməsi üçün yorulmadan fəaliyyət göstərir və inanırıq ki, Xızı rayonunun seçiciləri daha böyük nailiyyətlərin əldə edilməsi, Azərbaycanın istər regionda, istərsə də beynəlxalq aləmdə öz yerini möhkəmləndirməsi naminə aprelin 11-də Möhtərəm İlham Əliyev Cənablarına, birmənalı olaraq səs verəcəklər".

Görüşün sonunda bir qrup fəal partiya üzvünə YAP Xızı rayon təşkilatının Fəxri Fərmanları təqdim edilib.

### Ucarlı seçicilər: "Cənab İlham Əliyev Azərbaycanın sağlam gələcəyinin təminatçısıdır!"





Dünən prezident seçkilərinin təbliğat-təşviqat kampaniyası çərçivəsində Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Ucar rayon şöbəsi Qaradağlı kəndində rayon seçiciləri ilə mitinq keçirib.

Mintinqi giriş sözü ilə YAP Ucar rayon təşkilatının sədri Şəhla Abdullayeva açaraq bildirib ki, bu gün ölkəmizdə vətəndaşlarımızın həyat şəraitinin yaxşılaşdırılması üçün lazımı tədbirlər həyata kecirilir. "Prezident İlham Əliyev Azərbaycan, onun tərəqqisi və inkişafı uğrunda yorulmadan mübarizə aparır" deyə bildirən natiq aprelin 11-də rayon seçicilərini fəal şəkildə məntəqələrə gələrək, Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Təbliğat qrupunun üzvü Rahib Rəsulov və YAP Ucar rayon təşkilatı gənclər birliyinin sədr müavini Nuru Piriyev çıxış edərək, bildiriblər ki, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş inkişaf strategiyasının Prezident İlham Əliyevin yeni mərhələdə uğurla davam etdirməsi bu gün müstəqil Azərbaycanı regionun ən güclü və qüdrətli dövlətlərindən birinə çevirib: "Bütün bunların nəticəsi olaraq, Azərbaycan hazırda daha geniş geosiyasi arealda sülh, tərəqqi, sabitlik və iqtisadi əməkdaşlıq mərkəzi kimi tanınır. Bu siyasətin davamı üçün bizlər, birmənalı olaraq, İlham Əliyev Cənablarının siyasətini dəstəkləyir və bütün ucarlıları da bu kimi faktorları dəstəkləməyə çağırırıq".

Seçicilər adından Əlikram İsayev, Səltənət Hümmətova və şəhid atası Aslan Məmmədov çıxış edərək, Cənab İlham Əliyevin Azərbaycanı işıqlı gələcəyə apardığını vurğulayıblar və seçkilərdə Cənab İlham Əliyevin namizədliyini yekdilliklə müdafiə edəcəklərini bəyan ediblər.

### Pirallahılılar "İLHAMLA İRƏLİ" şüarı ilə növbəti qələbələrə doğru!





Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Pirallahı rayon şöbəsində bu ilin 11 aprelində keçiriləcək prezident seçkilərində Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş Cənab İlham Heydər oğlu Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində Pirallahı rayon seçiciləri ilə növbəti görüş keçirilib. Görüşdə YAP Pirallahı rayon təşkilatının sədri, YAP Mərkəzi Seçki Qərargahının Pirallahı rayon şöbəsinin sədri Hikmət Şikarov, Milli Məclisin deputatı, Əmək və Sosial Siyasət Komitəsinin sədr müavini Rauf Əliyev, Milli Məclisin deputatı, İqtisadi Siyasət Komitəsinin üzvü, MDB Parlamentlərarası Assambleyanın Siyasi məsələlər və Beynəlxalq əməkdaşlıq daimi komissiyasının sədr müavini Rüfət Quliyev, YAP Siyasi Şurasının üzvü, " İki Sahil" qəzetinin Baş redaktoru Vüqar Rəhimzadə, Azərbaycanın Milli Qəhrəmanı Bəxtiyar Allahverdiyev və YAP fəalları iştirak ediblər.

Görüşü giriş nitqi ilə açan YAP Pirallahı rayon təşkilatının sədri, YAP Mərkəzi Seçki Qərargahının Pirallahı rayon şöbəsinin sədri Hikmət Şikarov bütün qonaqları və seçiciləri salamlıayaraq, bu il aprelin 11-də keçiriləcək prezident seçkilərinə Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş Cənab İlham Əliyevin siyasi fəaliyyətinə ətraflı diqqət yönəltdi. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın daim irəliləməsini, hazırda regionun lider dövlət olması, ölkəmizin beynəlxalq aləmdə mövqeyinin xeyli güclənməsini, Azərbaycan iqtisadiyyatının inkişaf etməsini, ölkəmizin həm regionda, həm də dünyada mövqeyinin ciddi şəkildə möhkəmləndirməsini toplantı iştirakçılarının diqqətinə çatdırdı. Ölkə Prezidentinin bütün sahələr üzrə - iqtisadiyyat, kənd təsərrüfatı, ictimai-siyasi sabitlik, ordu quruculuğunun inkişafı sahələrində mühüm və təxirəsalınmaz islahatlar həyata keçirdiyini bildirdi. Bu islahatların məntiqi nəticəsi olaraq, dövlətçiliyimizin daha da inkişaf etdiyini, yüksək inkişaf və tərəqqi yoluna qədəm qoyduğunu vurğuladı. Ölkə başçısı Cənab İlham Əliyevin reallaşdırdığı uğurlu layihələr, apardığı islahatlar nəticəsində, respublikanın bütün bölgələrində olduğu kimi, Pirallahı rayonunda da genişmiqyaslı abadlıq və quruculuq işləri görülüb. Hikmət Şikarov əlavə edib ki, Pirallahı rayonundan olan seçicilər, birmənalı tərzdə aprelin 11-də keçiriləcək prezident seçkilərində Cənab İlham Əliyevə səs verəcəklər.

Çıxış edən Milli Məclisin deputatı Rauf Əliyev son illərdə ölkəmizin əldə etdiyi iqtisadi nailiyyətlərdən danışaraq, bildirdi ki, Prezident İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi 2003-cü ildən bu vaxtadək olan müddət Azərbaycan tarixinə hərtərəfli və sürətli inkişaf dövrü kimi daxil olub.

Milli Məclisin deputatı Rüfət Quliyev çıxışında qeyd etdi ki, Cənab İlham Əliyev Ulu Öndər Heydər Əliyev ideyalarının ən layiqli davamçısı olaraq, daim ölkəmizin inkişafı və xalqımızın rifahı üçün çalışıb.

"İki Sahil" qəzetinin Baş redaktoru Vüqar Rəhimzadə Azərbaycanda bütün sahələrdə sürətli inkişafın getdiyini deyərək, qeyd edib ki, Prezident İlham Əliyev bütün fəaliyyətini Azərbaycan xalqına həsr edib.

Azərbaycanın Milli Qəhrəmanı Bəxtiyar Allahverdiyev də, öz növbəsində, Pirallahı seçicilərini Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Pirallahı rayon Ağsaqqal Şurasının üzvü, əməkdar neftçi Səməd Əhmədov rayonun yaşlı təbəqəsinin güzəranından, dövlətin onlara göstrədiyi diqqət və qayğıdan söz açaraq, ağsaqqallar adından Cənab İlham Əliyevi dəstəklədiklərini bildirmişdir.

YAP Pirallahı rayon təşkilatının məsul əməkdaşı Günel Məmmədova çıxışında dövlətimizin daima gənclərə üstünlük verdiyini, onlara hər sahədə inkişaf etmələri üçün şərait yaradıldığını bildirdi.

Daha sonra tədbir tanınmış incəsənət xadimlərinin ifasında konsert proqramı ilə davam etdirildi.

### İdman ictimaiyyətinin seçimi Cənab İlham Əliyevdir

**YAP Nərimanov rayon təşkilatlarında idmançılarla görüş keçirilib**





11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkiləri ilə əlaqədar təbliğat-təşviqat kampaniyası çərçivəsində Yeni Azərbaycan Partiyası Nərimanov rayon təşkilatı tərəfindən silsilə tədbirlər davam etdirilir. Təbliğat-təşviqat kampaniyası çərçivəsində YAP Nərimanov rayon təşkilatında idmançılarla görüş keçirilib.

Tədbiri YAP Nərimanov rayon təşkilatının sədri Təmraz Tağıyev açaraq, Yeni Azərbaycan Partiyasının namizədi, dövlətimizin başçısı İlham Əliyevin həyata keçirdiyi ardıcıl və sistemli islahatlar, uğurlu daxili və xarici siyasət nəticəsində, ölkəmizin son illərdə qazandığı uğurlardan bəhs edib. O, ölkə idmançılarını Ulu Öndər Heydər Əliyev siyasətinin davamı naminə 11 aprel seçkilərində Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Milli Məclisin deputatı Adil Əliyev çıxışında bidirib ki, idmanın inkişafı dövlət siyasətinin prioritetlərindəndir. Onun fikrincə, Azərbaycan gəncliyi, idmanı və ordusu bir vəhdət təşkil edir: "Çünki harda Azərbaycan idmanı varsa, orada Azərbaycan gənci var. Eləcə də, harda Azərbaycan gənci varsa, orada Azərbaycan Ordusu var".

Milli Məclisin deputatı, "Yeni Azərbaycan" qəzetinin Baş redaktoru Hikmət Babaoğlu isə çıxışında diqqətə çatdırıb ki, seçicilərlə görüşlərdə aydın olur ki, hər bir seçici partiyamızın Sədri, ölkə Prezidenti İlham Əliyevin fəaliyyəti ilə bağlı, ən azı Onu təbliğ etməyə gedən insanlar qədər məlumatlıdır və dəqiq mövqeyə malikdir: "Bu, Azərbaycan xalqının mövqeyidir. Son 15 il ərzində Cənab Prezidentin fəaliyyəti Azərbaycan xalqının gözləri önündədir. Ölkə rəhbərinin fəaliyyətinin şəffaf olması, Onun gördüyü işlərin böyüklüyü, xalqın isə bu barədə yetərincə məlumatlı olması Cənab Prezidentin xüsusi təbliğata ehtiyacının olmadığını göstərir. Dövlət başçısı Öz təbliğatını əməlləri ilə yüksək səviyyədə təşkil edib. Buna görə də, hesab edirik ki, Cənab İlham Əliyev Azərbaycan xalqının alternativsiz namizədidir". "Prezident İlham Əliyevin təşəbbüsü və nəzarəti ilə Azərbaycanın hər bir bölgəsində idman arenalarının, müasir komplekslərin tikilərək yeniyetmələrin, gənclərin ixtiyarına verilməsi ölkəmizdə böyük idmançı ordusunun formalaşmasını şərtləndirib, idmanın kütləviliyi təmin edilib"-deyən millət vəkili əlavə edib ki, idmançılarımızın olimpiadalarda, beynəlxalq səviyyəli mötəbər yarışlarda qazandıqları uğurlar sayəsində Azərbaycan dünyada idman ölkəsi kimi tanınıb. Bütün bu amillər isə prezident seçkilərində idman ictimaiyyətinin Cənab İlham Əliyevə səs verəcəyini göstərir.

Çıxış edən Azərbaycan Güləş Federasiyasının I vitse-prezidenti Firdovsi Umudov bildirib ki, ölkəmizdə idmanın inkişafı ilə bağlı uzunmüddətli, planlı addımlar atılır ki, bu, özünü əldə olunan uğurlu nəticələrdə göstərir: "Azərbaycanda idmanın maddi-texniki bazası sürətlə genişlənir. Hazırda respublikamızın bütün bölgələrində dünya standartlarına cavab verən Olimpiya idman kompleksləri tikilib istifadəyə verilib. Məhz Prezident İlham Əliyevin şəxsi səyi sayəsində bölgələrdə gənclərin sağlam şəkildə yetişdirilməsi və onların sağlam ruhda böyüməsi üçün əsaslı addımlar atılır".

Ardı Səh. 8

# Xalq İlham Əliyevə "HƏ" deyir!

## Cənab İlham Əliyev alternativsiz Liderdir









Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Oğuz rayon şöbəsi aprelin 11-də keçiriləcək prezident seçkilərində Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində rayonun Bucaq və Calud kəndlərində seçicilərlə görüş keçirib.

YAP Mərkəzi Seçki Qərargahının Oğuz rayon şöbəsinin sədri Saleh Məhərrəmov görüşdə çıxış edərək, bildirib ki, oğuzluların mütləq çoxluğu YAP-ın namizədi Cənab İlham Əliyevə səs verəcəklər: "Ona görə ki, xalqımızın fəxri, böyük və qətiyyətli dövlət başçısı Cənab İlham Əliyev ölkə vətəndaşlarının ümid və qürür mənbəyidir. Bütün bunlara rəğmən, demək olar ki, YAP-ın namizədi Cənab İlham Əliyev alternativsiz namizəddir." Rayon şöbəsinin sədri oğuzluları prezident seçkilərində Cənab İlham Əliyevə səs verməyə çağırıb. Görüşdə seçicilər qarşısında çıxış edən YAP Mərkəzi Seçki Qərargahının Oğuz rayon şöbəsinin üzvləri Emin Əzimli, Abid Məmmədov, Yaqub Abbasov və başqaları YAP-ın namizədi Cənab İlham Əliyevin zəngin həyat yolundan, Onun Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi naminə misilsiz xidmətlərindən, həmçinin, rayonda görülən abadlıq-quruculuq işlərindən danışıblar. Bildirilib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan ötən 15 il ərzində bütün sahələrdə uğurlar əldə edib.

Tədbirdə çıxış edən kənd seçiciləri Lətif Abbasov, Vladim Həsənov, Sultanəli Xıdırov və Sahilə Ağayeva bildiriblər ki, artıq öz seçimlərini ediblər. Azərbaycanı işıqlı gələcəyə doğru aparan Möhtərəm Prezidentimizin gördüyü işlər, həyata keçirdiyi uğurlu inkişaf proqramı danılmazdır. Ona görə də, hamılıqla 11 apreldə Yeni Azərbaycan Partiyasının namizədinə səs verəcəklər.

## Neftçala seçiciləri qərarlıdır: - "İlhamla irəli"

Dünən Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Neftçala rayon şöbəsi təbliğat-təşviqat kampaniyası uğurla davam etdirir. Kampaniya çərçivəsində rayondakı növbəti görüş qadın seçicilər və Bankə qəsəbəsinin sakinləri ilə keçirilib.

Hər iki tədbiri giriş sözü ilə açan YAP Neftçala rayon təşkilatının sədri Anar Cəfərov Azərbaycan Prezidenti İlham Əliyevin son 15 ildə ölkədə apardığı abadlıq-quruculuq işlərinə, təhsilə, səhiyyəyə, mədəniyyətə, orduya və digər sahələrə ayırdığı diqqəti qeyd edərək ölkəmizin böyük uğurlar qazandığını bildirib: "Ölkə rəhbərliyinin yüksək dəqiqliklə seçdiyi və uğurla həyata keçirdiyi məqsədyönlü siyasət sayəsində son 15 ildə ölkə həyatı üçün strateji əhəmiyyət daşıyan inkişaf proqramlarının hazırlanması və işlək mexanizmlər əsasında həyata keçirilməsi, ən müxtəlif sahələrdə intibah prosesinin geniş vüsət alması ilə səciyyəvidir. Cənab İlham Əliyevin ölkəyə rəhbərliyi dövründə müstəqil Azərbaycan iqtisadi cəhətdən möhkəmlənmiş, qüdrətlənmiş və sosial-iqtisadi yüksəliş, ilk növbədə, insanların gündəlik həyatında özünü daha qabarıq büruzə vermişdir". O, belə bir uğurlu inkişaf naminə seçiciləri Cənab İlham Əliyevə səs verməyə çağırdı.

Tədbirdə Milli Məclisin Regional Məsələlər Komitəsinin sədri, YAP İdarə Heyətinin üzvü Arif Rəhimzadə çıxış edərək, prezidentliyə namizəd Cənab İlham Əliyevin əvvəlki seçkilərdə verdiyi bütün vədlərin real həyatda öz əksini tapdığını bildirib. Qeyd edib ki, Prezident İlham Əliyev ölkəmizə rəhbərlik etdiyi 15 il ərzində Azərbaycan dünyada ən sürətli iqtisadi inkişaf tempinə malik olan, vətəndaşlarının sosial problemlərini həll edən, insanların həyat standartlarının sürətlə yüksəldiyi bir dövlətə çevrilib. O, seçiciləri Azərbaycan dövlətinin gələcək inkişafı üçün çox mühüm əhəmiyyət kəsb edən bu seçki prosesində fəal iştirak etməyə, aprelin 11-də seçki məntəqələrinə gedərək, Azərbaycana böyük qələbələr və uğurlar qazandırmış Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Görüşdə çıxış edən "Səs" qəzetinin Baş redaktoru Bəhruz Quliyev qeyd edib ki, son 15 il ərzində Prezident İlham Əliyevin həyata keçirdiyi cəsarətli, düşünülmüş və gələcəyə hədəflənmiş siyasəti nəticəsində, müstəqil Azərbaycanın bütün sosial-iqtisadi sahələrində əldə olunan misilsiz uğurlar, ölkəmizdə yüksələn dinamika ilə davam edən tərəqqi, reallaşdırılan çoxşaxəli və sistemli iqtisadi və siyasi islahatlar hər kəsin göz önündə baş verib. B.Quliyev onu da vurğulayıb ki, Azərbaycanda mövcud olan inkişaf və tərəqqi, əldə olunan möhtəşəm nailiyyətlər, böyük dəyərimiz olan ictimai-siyasi sabitlik, xüsusilə, dünyada müşahidə olunan proseslər fonunda ölkəmizdəki siyasi, iqtisadi və sosial sabitliyimiz, məhz düşünülmüş Cənab İlham Əliyev siyasətinin nəticəsidir. O, seçiciləri seçkilərdə fəal olmağa və əldə olunan nailiyyətlərin, ölkəmizdəki ictimai-sabitliyin davamlı olması üçün Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevə səs verməyə çağırıb.

## Qəbələ seçiciləri Cənab İlham Əliyevi dəstəkləyirlər

Dünən prezidentliyə namizəd Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində Qəbələ rayonunun Zarağan kəndində seçicilərlə görüş keçirilib. Görüşdə qonşu Daşca və Aydınqışlaq kəndinin seçiciləri də iştirak ediblər.

Tədbiri Yeni Azərbaycan Partiyası Qəbələ rayon təşkilatının sədr müavini, təşviqat qrupunun üzvü Elçin Tağıyev açaraq, 2003-2018-ci illərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin uğurlarından bəhs edərək, bildirib ki, Prezident İlham Əliyevin bütün sahələrdə apardığı islahatların elmin, təhsilin inkişafında da hiss olunması, həm də milli təfəkkürün formalaşmasına, azərbaycançılıq ideyasının möhkəmlənməsinə göstərilən qayğıdır. Natiq vurğulayıb ki, 11 aprel tarixində keçiriləcək seçkilərdə də seçicilər Azərbaycanın gələcək inkişafı və firavanlığı naminə Cənab İlham Əliyevə səs verəcəklər.





Tədbirdə çıxış edən YAP Mərkəzi Seçki Qərargahının Qəbələ rayon şöbəsinin təşviqat qrupunun üzvü Azad Məmmədov 11 aprel 2018-ci il tarixdə keçiriləcək prezident seçkilərində bütün seçiciləri Ulu Öndər Heydər Əliyevin layiqli davamçısı, ölkə Prezidenti İlham Əliyevə səs verməyə çağırıb.

Görüş iştirakçılarından Ələddin İsgəndərov, Suğra Məmmədova, Samirə Əzizova, Şahvəddin Əhmədov, Bədrəddin Nəsirov, Sənani Məmmədov, Məlahət Zəkəriyyəyeva və Şəfəq Əhmədova çıxış edərək, Cənab İlham Əliyevin müstəqil dövlətimiz və xalqımız üçün gördüyü saysız-hesabsız işlərdən danışaraq, seçkilərdə Yeni Azərbaycan Partiyasının namizədinin - Cənab İlham Əliyevin parlaq qələbə qazanacağına əminlik ifadə ediblər.

## Qusarlıların seçimi Cənab İlham Əliyevdir



Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Qusar rayon şöbəsi 11 aprel tarixində prezident seçkilərin-

# Xalq İlham Əliyevə "HƏ" deyir!

də YAP tərəfindən namizədliyi irəli sürülmüş Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində rayonun Yuxarı Kalunxur və Yuxarı Zeyxur kəndlərində seçicilərlə görüş keçirib.

Görüşdə çıxış edən YAP Mərkəzi Seçki Qərargahının



Qusar rayon şöbəsinin sədri David İbramxəlilov bildirib ki, Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə böyük inkişaf yolu keçib və gələcəyə doğru inamla addımlayır. Rayon şöbəsinin sədri əlavə edib ki, Cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət milli inkişafı təmin edib. "Bu gün Azərbaycan vətəndaşlarının Prezident İlham Əliyevi xalqımızın alternativsiz lideri kimi dəyərləndirdiyini" deyən D.İbramxəlilov əldə edilən uğurların davamlı olması üçün seçiciləri Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Qusar rayon şöbəsinin təbliğat-təşviqat qrupunun üzvləri Nadirşah Şirinov və Kamil Sultanov ölkəmizdə müşahidə olunan sürətli inkişaf, həmçinin, Prezident İlham Əliyevin daim xalqımıza göstərdiyi yüksək diqqət və qayğıdan danışıblar. Natiqlər dövlətçiliyə hər zaman sədaqət nümayiş etdirən Qusar seçicilərini 11 apreldə seçkilərə gəlməyə, inamlı sabahımıza səs verməyə çağırıblar.Seçicilər adından çıxış edən Meyvəddin Babayev, Ziyaddin Şirinov, Şair Bədirxanov və Yafəz Şirinov seçki günü hamının, birmənalı olaraq, Cənab İlham Əliyevə səs verəcəklərini bildiriblər.

### Ağdaşlılar uğurlu gələcəyə səs verəcəklər





11 aprel 2018-ci il tarixdə keçiriləcək prezident seçkilərində Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülən Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində YAP Mərkəzi Seçki Qərargahının Ağdaş rayon şöbəsi Gürcüva, Ərəbocağı, Pirkəkə və Korarx kəndlərindən olan seçicilərlə növbəti görüş keçirib.

Tədbiri giriş sözü ilə açan YAP Mərkəzi Seçki Qərargahının Ağdaş rayon şöbəsinin sədri, Milli Məclisin üzvü Cavid Osmanov son 15 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasətdən və əldə olunan tarixi nailiyyətlərdən danışıb: "Ölkəmizdə son 15 il ərizində yaradılan təhsil və səhiyyə müəssisələri aparılan islahatların tərkib hissəsidir. Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan müdrik siyasi strategiyanın daha uzun illər davam etməsi ilə Azərbaycan daha da inkişaf edəcək. Bütün seçiciləri növbəti prezident seçkilərinə gedərək, yekdilliklə Cənab İlham Əliyevə səs verməyə, çağırıram".

Görüşdə seçicilər adından çıxış edənlər - Hacıyev Mirzə, Sadıqov Tapdıq, Əhmədov Ədaləddin və Abdullayeva Sevda bildiriblər ki, ağdaşlılar Yeni Azərbaycan Partiyasının Sədri, ölkə başçısı Cənab İlham Əliyevin siyasi dəstxəttini ürəkdən bəyənirlər. Ölkədə görülən işlərin real şahidləri olduqlarını qeyd edən ağdaşlılar 11 aprel 2018-ci il tarixdə yenidən öz seçimlərində qalacaqlarını bəyan ediblər.

Keçirilən görüşlərdə təbliğat qrupunun üzvlərindən Ziyafət İsayeva və Rahim Zakirov çıxış edərək, seçiciləri 11 apreldə seçki məntəqələrinə gələrək, ölkəmizin uğurlu gələcəyi naminə Cənab İlham Əliyevə səs verməyə çağırıblar.

### Qubalılar işıqlı gələcəyimizə səs verəcəklər

YAP Mərkəzi Seçki Qərargahının Quba rayon şöbəsi tə-





rəfindən Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin təbliğat kampaniyası uğurla davam etdirilir.

Keçirilən görüşlərin davamı olaraq, dünən rayonun Hacıhüseynli inzibati-ərazi dairəsində seçicilərlə növbəti görüş keçirilib. Görüşdə YAP Quba rayon təşkilatının sədri Yusif Abidov çıxış edərək, Azərbaycan Prezidentinin həyata keçirdiyi siyasət nəticəsində, ölkəmizin böyük inkişaf yolu keçdiyini bildirib. Ölkəmizdəki mövcud sabitliyin xalq-iqtidar birliyinin, həmrəyliyin ifadəçisi olduğunu diqqətə çatdıran rayon təşkilatı sədri Prezident İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi dövrdən bu günə kimi Azərbaycanın iqtisadi, siyasi və mədəni həyatında yeni dövrün olduğunu, yeni mənzərənin meydana çıxdığını bildirib. Azərbaycanı beynəlxalq arenada tanıdıran, inkişafın Azərbaycan modelini dünyaya bəyan edən Cənab İlham Əliyevin siyasi kursunu dəstəkləməyə hər kəsi çağıraraq, işıqlı gələcəyə səs verməyə dəvət etdi.

Görüşdə rayon təşkilatının təbliğat qrupunun üzvləri, Həsən Günəşli, Hüseynağa Baxışov, Əhməd Baloğlanov, Qılman Qubatov çıxış edərək, qeyd etdilər ki, iqtisadiyyatda müşahidə olunan müsbət meyilləri möhkəmləndirmək, həmçinin, sosial sahədə və digər sahələrdə uğurları daha da inkişaf etdirmək məqsədi ilə qubalıları Yeni Azərbaycan Partiyasının namizədinin ətrafında sıx birləşməyə və Cənab İlham Əliyevə səs verməyə çağırdılar.

### Şamaxılılar alternativsiz lider Cənab İlham Əliyevə səs verəcəklər

Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının





Şamaxı rayon şöbəsi dünən Şamaxı şəhər qadınları, səhiyyə və təhsil işçiləri ilə görüş keçirib. Görüşdə YAP Mərkəzi Seçki Qərargahının üzvləri Xarici Dillər Universitetinin rektoru, akademik Kamal Abdulla, Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli, YAP Mərkəzi Aparatının məsul işçisi Həsən Daşdəmirov iştirak ediblər. İlk öncə, yığıncağı giriş sözü ilə YAP Şamaxı rayon təşkilatının sədri Bəxtiyar Abbasov açıq elan edib və Prezident İlham Əliyevin uğurlu fəaliyyətindən, Onun rəhbərliyi ilə əldə olunan nailiyyətlərdən, Şamaxının abadlaşdırılmasına verdiyi töhfələrdən danışıb və inkişafın daimi, regionlara qayğının mütəmadi olması üçün Cənab İlham Əliyevin yenidən Azərbaycan Prezidenti seçilməsinin vacibliyini vurğulayaraq, seçiciləri alternativsiz lider İlham Əliyevə səs verməyə çağırıb.

Sonra Xarici Dillər Universitetinin rektoru, akademik Kamal Abdulla, Azərbaycan Aypara Cəmiyyətinin prezidenti, millət vəkili Novruzəli Aslanov, Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli çıxış edərək, Cənab İlham Əliyevin imza atdığı uğurlu layihələrdən, ölkəmizin beynəlxalq miqyasda nüfuzunun artması istiqamətindəki xidmətlərindən, uğurlu daxili və xarici siyasət yürütdüyündən, ölkəmizin iqtisadi inkişafında əvəzedilməz rolundan və sayəsində əldə olunan müvəffəqiyyətlərdən danışdılar və Şamaxı seçicilərinin Cənab İlham Əliyevə səs verəcəklərinə və bundan sonra da bu siyasi kursu dəstəkləyəcəklərinə ümid etdiklərini bildirdilər.

Sonda təbliğat qrupunun üzvləri seçicilərin suallarına cavab verərək, seçiciləri 11 aprel 2018-ci il tarixində seçkilərdə iştirak etməyə və Cənab İlham Əliyevə səs verməyə səslədilər.

Ardı Səh. 10

# Xalq İlham Əliyevə “HƏ” deyir!

## Daha güclü və qüdrətli Azərbaycan naminə “İLHAMLA İRƏLİ!”





Dünən Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Nəsimi rayon şöbəsi YAP tərəfindən namizədliyi irəli sürülmüş İlham Heydər oğlu Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində rayonun təhsil işçiləri ilə görüş keçirdi. Tədbirdə 300-ə yaxın təhsil işçisi iştirak edirdi.

Görüşdə Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Nəsimi rayon şöbəsinin sədri, millət vəkili Məlahət İbrahimqızı çıxış edərək, regionun lideri olan Azərbaycanın dünyanın sürətlə inkişaf edən ölkələrindən birinə çevrilməsində Möhtərəm Prezident İlham Əliyevin 2003-cü ildən bu günə olan fəaliyyətinə nəzər saldı: “Bu gün müstəqil Azərbaycanın beynəlxalq aləmdə iqtisadi və siyasi mövqeyini daha da möhkəmləndirməsi, beynəlxalq qurumların hesabatlarında islahatçı ölkə kimi yer tutması, dünyanın nüfuzlu təşkilatlarının Azərbaycanın mövqeyini dəstəkləyən qərar və qətnamələr qəbul etmələri ölkəmizin seçdiyi yolun düzgün olduğunu təsdiqləyir. Təkcə onu demək kifayətdir ki, ölkəmizin iştirakı olmadan regionda heç bir strateji layihə reallaşdırılmır”.

Rayon təşkilatı sədri seçiciləri fəal olmağa və partiyanın namizədi Cənab İlham Əliyevə səs verməyə çağırdı.

Görüşdə çıxış edən “İki sahil” qəzetinin Baş redaktoru Vüqar Rəhimzadə Cənab İlham Əliyevin fəaliyyətinin birinci dövründə verdiyi bütün vədləri yerinə yetirdiyini və ölkəmizin dinamik inkişafına nail olduğunu bildirdi. Qeyd etdi ki, Azərbaycan Prezidenti İlham Əliyev Ulu Öndər Heydər Əliyevin müdrik siyasətini uğurla davam etdirərək, Azərbaycanda müşahidə edilən dinamik yüksəlişlə bahəm, onun keyfiyyətcə yeni mərhələyə qədəm qoyması üçün geniş imkanlar açdı. Ölkənin iqtisadi həyatında ciddi uğurlar əldə edildi və cəmiyyət keyfiyyətcə yeni bir mərhələyə qədəm qoydu. V.Rəhimzadə 15 il ərzində Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə həyata keçirilən genişmiqyaslı quruculuq işlərindən, regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının tətbiqi ilə həyata keçirilən islahatlardan danışaraq, seçiciləri prezident seçkilərində alternativsiz namizəd olan Cənab İlham Əliyevə səs verməyə çağırdı.

Görüşdə çıxış edən təhsil işçiləri də ötən dövrdə böyük dəstək və etimadla xalqın böyük rəğbət və inamını qazanmış Cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə təhsil sahəsində həyata keçirilən islahatlardan, onun infrastrukturu sahəsində görülmüş misilsiz işlərindən danışdılar. Onlar ümumxalq namizədi Cənab İlham Əliyevin prezidentliyə namizədliyinin geniş ictimaiyyət tərəfindən 7 il üçün daha güclü və qüdrətli Azərbaycan naminə dəstəkləyəcəklərini bildirdilər.

## Binəqədililər prezident seçkilərində Cənab İlham Əliyevə səs verəcəklər

Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatının inzibati binasında 11 aprel prezident seçkilərində Yeni Azərbaycan Partiyasının namizədi İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində seçicilərlə növbəti görüş keçirilib.

Görüşü giriş sözü ilə açan Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Binəqədi rayon şöbəsinin sədri Ramiz Göyüşov Prezident İlham Əliyevin rəhbərliyi ilə son 15 il ərzində ölkəmizdə həyata keçirilən uğurlu islahatlardan və o islahatların nəticəsi olaraq, əldə olunan çoxsaylı nailiyyətlərdən geniş bəhs edib. R.Göyüşov ölkə Prezidenti Cənab İlham Əliyevin rəhbərliyi ilə reallaşdırılan irimiqyaslı layihələr haqqında məlumat verib. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilis-Qars layihələrinin ölkəmizin davamlı inkişafına əsaslı zəmin yaratdığını vurğulayıb. Sədr bütün seçiciləri qarşıdan gələn prezident seçkilərində dövlətimizin inkişafı, təhlükəsizliyinin təmin olunması naminə Cənab İlham Əliyevin ətrafında sıx birləş-






məyə səsləyib.

Milli Məclisin deputatı Kamaləddin Qafarov çıxışında bildirib ki, dövlət başçısı Cənab İlham Əliyevin prezidentlik fəaliyyətinə başlayarkən, “Mən hər bir azərbaycanlının prezidenti olacağam” fikirləri, bu gün artıq əməli fəaliyyəti ilə öz təsdiqini tapıb. K.Qafarov çıxışında bir sıra statistik rəqəmlərə diqqət yetirərək, Binəqədi rayonunda son 15 ildə qazanılan uğurlara nəzər salıb. Millət vəkili çıxışında bütün seçiciləri qarşıdan gələn prezident seçkilərində Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Milli Məclisin deputatı Madar Musayev çıxışında 1990-cı illərin əvvəllərində ölkəmizdəki gərgin ictimai-siyasi vəziyyətə nəzər salıb. O zamankı hakimiyyət rəhbərlərinin dövləti və xalqı uçuruma apardıqlarını, tarixin bütün dövrlərində öz xislətlərindən əl çəkmədiklərini söyləyib. Onların yarıtmaz və şəxsi ambisiyalarına xidmət edən siyasi fəaliyyətləri nəticəsində, dövlətçiliyimizin təhlükə altında qaldığını qeyd edib. Lakin xalqımız çox da uzaq keçmişdə olmayan o hadisələri yaxşı xatırlayır və öz gələcək taleyini ancaq Cənab İlham Əliyevə etibar edir. Millət vəkili seçiciləri prezident seçkilərində yüksək fəallıq göstərməyə və Cənab İlham Əliyevə səs verməyə çağırıb. Görüşdə çıxış edən seçicilərdən Aslan İsayev, İmaş Eyvazov və başqaları prezident seçkilərində fəal iştirak edəcəklərini və xalqımızın alternativsiz lideri Cənab İlham Əliyevə dəstək göstərəcəklərini söyləyiblər.

## Suraxanı seçiciləri Cənab İlham Əliyevə səs verəcəklər





Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Suraxanı rayon şöbəsi Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş İlham Heydər oğlu Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində seçicilərlə növbəti görüş keçirib. 250 nəfərin iştirak etdiyi görüşdə ölkə rəhbəri Cənab İlham Əliyevin 2003-2018-ci illər ərzindəki gördüyü işləri əks etdirən video-çarx nümayiş etdirilib.

Tədbiri giriş sözü ilə açan rayon şöbəsinin sədri Vüqar Seyidov ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın nail olduğu möhtəşəm tarixi nailiyyətlərdən, ölkəmizin beynəlxalq nüfuzunun gündən-günə möhkəmlənməsindən və sürətli iqtisadi inkişafa nail olmasından danışıb. Azərbaycanın daxili imkanları genişləndikcə, sosial sahələrə də diqqətin artdığını bildirən V.Seyidov ölkə daxilində görülən işlərin müasir səviyyədə həyata keçirildiyini diqqətə çatdırıb.

Rayon şöbəsinin sədri bütün bu uğur və nailiyyətlərin Cənab Prezidentin rəhbərliyi ilə gerçəkləşdiyini bildirərək, seçiciləri bu firəvan həyatın davamlılığı üçün Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Tədbirdə çıxış edən vəkil Loğman Abdullayev Cənab İlham Əliyev siyasətinin xalqımız tərəfindən dəstəkləndiyini bildirib. O, qeyd edib ki, bütün seçkilərdə olduğu kimi, növbəti prezident seçkiləri də şəffaf, azad və demokratik bir şəraitdə keçiriləcək. Milli Məclisin üzvü Ağacan Abıyev ölkənin iqtisadi-siyasi yüksəlişindən və idman sahəsində qazanılan nailiyyətlərdən söz açıb. Millət vəkili bildirib ki, idmana dövlət səviyyəsində xüsusi diqqət və qayğının göstərilməsi həm cəmiyyətimizdə gənc nəslin sağlam yetişməsinə, həm də Azərbaycanın beynəlxalq miqyasda idman ölkəsi kimi tanınaraq, nüfuzunun artmasına xüsusi töhfələr verir. Millət vəkili seçiciləri Azərbaycana beynəlxalq aləmdə böyük nüfuz qazandıran Cənab İlham Əliyevin namizədliyini dəstəkləməyə çağırıb. Avropa beynəlxalq idman yarışlarının qalibi Eduard Məmmədov və rayonun fəal gənclərindən olan Aydın Əhmədov çıxışlarında hər bir seçicini seçkidə iştirak etməyə, öz iradəsini ifadə etməyə, doğru seçim olaraq, Cənab İlham Əliyevə səs verməyə dəvət ediblər.

## Sabunçu seçiciləri uğurlu gələcəyimiz naminə Cənab İlham Əliyevə səs verəcəklər




Dünən Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Sabunçu rayon şöbəsi Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş İlham Heydər oğlu Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində rayon ərazisində yerləşən İsmət Qayıbov adına stadionda iki mindən artıq seçicinin iştirakı ilə mitinq keçirdi.

Ardı Səh. 11

# Xalq İlham Əliyevə "HƏ" deyir!

Əvvəli-Səh-10



Ulu Öndər Heydər Əliyevin "Mən fəxr edirəm ki, azərbaycanlıyam" müdrik ifadəsi ilə başlanan tədbiri giriş sözü ilə açan rayon təşkilatının sədri Mehriban Abasquliyeva ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın nail olduğu möhtəşəm tarixi nailiyyətlərdən, ölkəmizin beynəlxalq nüfuzunun gündən-günə möhkəmlənməsindən, sürətli iqtisadi inkişafa nail olmasından danışdı.

Rayon təşkilat sədri bütün bu uğur və nailiyyətlərin Cənab Prezidentin rəhbərliyi ilə gerçəkləşdiyini bildirərək, İlhamlı sabahımıza, "İLHAMLA İRƏLİ!" - deyərək, Sabunçu rayon seçicilərini uğurlu gələcəyimiz naminə Cənab İlham Əliyevə səs verməyə çağırdı.

Tədbirdə çıxış edən Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru Cəfər Cəfərov, millət vəkili Dilarə Cəbrayılova, rayon Ağsaqqallar Şurasının sədri Nadir Əsədov, gənc seçicilərdən Ümidə Məcnunlu və başqaları Ulu Öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən məqsədyönlü şəkildə dövlət siyasətinin həyata keçirilməsini bildirərək, dövrün tələblərinə uyğun sistemli islahatların aparıldığını diqqətə çatdırıblar. Bu işlərin davamlı olmasını vurğulayaraq, rayon seçicilərini 11 apreldə Ulu Öndər Heydər Əliyev siyasətinin ən layiqli davamçısı Cənab İlham Əliyevə səs verməyə çağırdılar.

Qeyd edək ki, tədbirdə YAP Gənclər Birliyini sədri Seymur Orucov da iştirak edirdi. Tədbir konsert proqramı ilə davam etdirildi.

## Oğuzlular yekdilliklə Cənab İlham Əliyevi dəstəkləyəcəklər





11 aprel 2018-ci il tarixində keçiriləcək prezident seçkilərində Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Heydər oğlu Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində YAP Mərkəzi Seçki Qərargahının Oğuz rayon şöbəsi rayonun Baş Daşağıl, Muxas kəndlərində seçicilərlə görüşlər keçirib.

Görüşlərdə YAP Mərkəzi Seçki Qərargahının Oğuz rayon şöbəsinin sədri Saleh Məhərrəmov Ulu Öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən məqsədyönlü şəkildə dövlət siyasətinin həyata keçirildiyini bildirərək, dövrün tələblərinə uyğun sistemli islahatların aparıldığını diqqətə çatdırıb: "İctimai-siyasi və sosial-iqtisadi həyatda mütərəqqi dəyişikliklərin edilməsi, təhlükəsizliyinin və sabitliyin gücləndirilməsi ilə bağlı görülən tədbirlər dövlətimizin qüdrətinin artmasını, xalqımızın əmin-amanlığının və rifah halının yüksəlməsini təmin edib. Rayon şöbəsinin sədri çıxışında 11 aprel tarixində keçiriləcək prezident seçkilərində Vətənini və dövlətini sevən hər bir vətəndaşın Cənab İlham Əliyevə səs verəcəyinə əminliyini bildirib.

Görüşdə təbliğat-təşviqat qrupunun üzvlərindən Rəşid Nurməmmədov, Ramiz Mahmudov, Elman Qocayev və başqaları çıxış edərək, səsvermə hüququ olan hər bir rayon sakinin fəallıq nümayiş etdirməsinin vacibliyindən danışıblar. Natiqlər əmin olduqlarını bildiriblər ki, oğuzlu seçicilər bu seçkilərdə də, birmənalı tərzdə partiyanın namizədi Cənab İlham Əliyevi dəstəkləyəcəklər.

Seçicilər adından çıxış edən Emin Cəfərov, Rəhim Abdurəfiyev və başqaları bəyan ediblər ki, onlar hər zaman Yeni Azərbaycan Partiyasının siyasi dəst-xəttini dəstəkləyiblər və bu gün də bu, belədir. Odur ki, aprel ayının 11-də Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevə yekdilliklə səs verəcəklər.

## Qobustanlılar gələcəyə səs verəcəklər





Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahı Qobustan rayon şöbəsi namizədliyi Yeni Azərbaycan Partiyası tərəfindən irəli sürülən Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində dünən Qobustan şəhər seçiciləri ilə görüşü keçirilib. Tədbirdə YAP Seçki Qərargahının Qobustan rayon şöbəsinin sədri Füzuli Gülaliyev çıxış edərək qeyd edib ki, bu gün hər bir Qobustan sakini ömrünün ən xoş anlarını yaşayır ki, bunu sizin qəlbinizdəki inamdan, gözünüzdəki sevincdən duymaq mümkündür: "Böyük ümidləriniz, sevinciniz, alqışlarınız hər birimiz üçün əziz olan, müdrik bir insana, Cənab İlham Əliyevə olan sonsuz məhəbbətin, ehtiramın və sədaqətin ifadəsidir. Bu məhəbbəti Cənab İlham Əliyev Prezident seçildiyi ilk gündən son 15 ildə hər gün, hər an öz fəaliyyəti, uzaqgörən siyasəti, xalqa, vətənə xidmətləri ilə sizin, bütün azərbaycanlıların qəlbinə həkk edib əbədiləşdirib".

Füzuli Gülaliyev çıxışında onu da vurğulayıb ki, biz həmişə haqqa, ədalətə önəm verən, xalqını, vətənini dərin məhəbbətlə sevən, fəaliyyəti ilə əməlləri bir olan liderə, qətiyyətli rəhbər, müdrik siyasətçi Cənab İlham Əliyevə arxalanmışıq və mən bütün Qobustan sakinlərinin adından danışdığıma, onların fikrini ifadə etdiyimə görə qürur duyur və bir daha deyirəm ki, qobustanlılar bir nəfər kimi, Cənab İlham Əliyevi müdafiə edir və Cənab İlham Əliyevə səs verəcəklər.

Görüşdə YAP Mərkəzi Seçki Qərargahının Qobustan rayon şöbəsinin üzvü Zaur Cəfərov, təbliğatçılardan İmran Sabirov, Əlibəy Abduləzizov çıxış edərək, Cənab İlham Əliyevin rəhbərliyi altında son 15 il ərzində həyata keçirilmiş işlər və qazanılmış uğurlu nailiyyətlər barədə öz fikirlərini bölüşüblər və seçiciləri Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevə səs verməyə səsləyiblər.

## Zaqatalalılar qüdrətli Azərbaycan naminə Cənab İlham Əliyevi dəstəkləyəcəklər





11 aprel 2018-ci il tarixində keçiriləcək prezident seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində YAP Mərkəzi Seçki Qərargahının Zaqatala rayon şöbəsi Faldarlı və Yengiyan kənd secicilərilə görüş keçirib. Görüşdə 300-ə yaxın seçici iştirak edib.

Görüşdə çıxış edən YAP Zaqatala rayon təşkilatının sədri Habil Qurbanov bildirib ki, bu gün Azərbaycanın sürətli inkişafı, dünyadakı nüfuzunun durmadan artması dövlət başçısı İlham Əliyev tərəfindən həyata keçirilən uğurlu daxili və xarici siyasətin bariz nümunəsidir. Rayon şöbəsinin sədri bu uğurların fonunda dövlət başçısı Cənab İlham Əliyevin yüksək etimad və etibara layiq olduğunu söyləyərək, bütün seçiciləri qarşıdan gələn prezident seçkilərində YAP-ın namizədi, milli maraqlarımızın təminatçısı Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Görüşdə təbliğat qrupunun üzvləri Ədalət Novruzova, Gülnigar Məmmədova, Kəmalə Əhmədova, Xanım İsayeva və başqaları çıxış edərək bildiriblər ki, 2003-2018-ci illər ərizində Cənab İlham Əliyevin ölkə Prezidenti kimi gördüyü işlər Azərbaycanın inkişafına çox böyük təkan vermişdir. Çıxış edənlər güclü və qüdrətli Azərbaycan naminə 11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkilərində seçiciləri Cənab İlham Əliyevə səs verməyə çağırıblar. Faldar kənd ağsaqqalı Rəşidov Məmmədiyyə və ziyalılar Ömər Məmmədov, Samirə Yusifova, Türanə İsmayılova, Yengiyan kənd ağsaqqalı Nizaməddin Muradov və ziyalılar Ramin Şabanov və başqaları kənd seçiciləri adından çıxış edərək, bildiriblər ki, birmənalı şəkildə Cənab İlham Əliyevə səs verərək, gələcək inkişafımızı və əmin-amanlığımızı təmin edəcəyik.

## İnamlı gələcəyə İlhamla irəli

***Xaçmazda təbliğat-təşviqat kampaniyası davam edir***

11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyası Xaçmaz rayon təşkilatı Niyazoba və Qaraçı kənd seçiciləri ilə görüş keçirib. Görüşü YAP Xaçmaz rayon təşkilatının sədri Nazim Ağayev açaraq Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin Ulu Öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirməklə, ölkəmizi sabitlik və inkişafın, vətəndaş həmrəyliyinin təmin olunduğu güclü dövlətə çevrildiyini bildirib.

Ardı Səh. 12




səs ®

www.sesqazeti.az
facebook Ses Media Holding

29 mart 2018-ci il

# Ölkəmizin gələcək inkişafı üçün cənab İlham Əliyevə səs verməliyik



**Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidovun yap.org.az-a müsahibəsi**

***Səməd müəllim, aprelin 11-də ölkəmizdə prezident seçkiləri keçiriləcək. Azərbaycan seçkilərə hansı uğurlarla gedir?***

- Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu daxili və xarici siyasət kursu Azərbaycanı beynəlxalq miqyasda demokratik ölkə və etibarlı tərəfdaş kimi tanıdıb. İstər regional, istərsə də beynəlxalq əməkdaşlıq kontekstində Azərbaycan çox mühüm tərəfdaş, aparıcı ölkə kimi çıxış edir. Azərbaycanın iştirakı və təşəbbüsü ilə reallaşdırılan qlobal əhəmiyyətli layihələr regionun təhlükəsizliyini təmin etməklə yanaşı, yeni əməkdaşlıq platformaları müəyyənləşdirib. Bunun nəticəsidir ki, Azərbaycanla əməkdaşlıq etmək istəyən ölkələrin sayı artır, ölkəmizin ikitərəfli və çoxtərəfli münasibətləri genişlənir və daha da inkişaf edir.

Azərbaycan regionun lider ölkəsi olmaqla yanaşı, həm də davamlı inkişafa malik olan ölkələrdən biridir. Azərbaycanın iqtisadi potensialı mütəmadi olaraq artır, dünya iqtisadiyyatında mövqeyi möhkəmlənir. Təsadüfi deyil ki, dünyanın nüfuzlu reytinq agentlikləri Azərbaycanda həyata keçirilən iqtisadi islahatları, bunun nəticəsində əldə edilən inkişaf göstəricilərini və nailiyyətləri yüksək qiymətləndirirlər.

Möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu və praqmatik siyasət nəticəsində Azərbaycan həm də beynəlxalq dialoq, əməkdaşlıq məkanına çevrilib. Azərbaycanın beynəlxalq mövqeyi daha da güclənir, ölkəmizə maraq artır. Azərbaycan beynəlxalq təşkilatlarda, o cümlədən Avropa Şurasında öz maraqlarının müdafiəsini qətiyyətlə həyata keçirir, ölkəmizin beynəlxalq nüfuzu mütəmadi olaraq artır. Azərbaycanın iştirakı olmadan regionda hər hansı bir layihənin həyata keçirilməsini təsəvvür etmək belə mümkün deyil. Ona görə də bu gün dünyanın diqqəti Azərbaycandadır, ölkəmizə olan maraq artıb. Ölkəmiz aprelin 11-də keçiriləcək prezident seçkilərinə məhz bu cür müsbət reallıqlar fonunda gedir. Bu reallıqlar isə Azərbaycan xalqının cənab İlham Əliyevi yekdilliklə dəstəkləməsini şərtləndirir. Azərbaycan vətəndaşları Prezident İlham Əliyevin inkişafa, rifaha xidmət edən siyasətini birmənalı şəkildə dəstəkləyir.

***- Bu gün Azərbaycan dünyada etibarlı tərəfdaş kimi tanınır, ölkəmizin beynəlxalq mövqeyi mütəmadi olaraq möhkəmlənir. Bunu təmin edən strateji amil isə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən praqmatik xarici siyasət kursudur. Bu barədə nə düşünürsünüz?***

- Əvvəla qeyd edim ki, Azərbaycanın xarici siyasəti milli maraqlara əsaslanır. Prezident İlham Əliyevin rəhbərliyi ilə praqmatik siyasət həyata keçirilir və bu siyasət nəticəsində Azərbaycanın mövqeyi beynəlxalq miqyasda əhəmiyyətli dərəcədə güclənib. Bu siyasətin nəticəsi kimi, Azərbaycan 2011-ci ildə BMT Təhlükəsizlik Şurasının üzvü seçilib, beynəlxalq təşkilatlarda söz və nüfuz sahibinə çevrilib. Azərbaycan dünyaya inteqrasiyasını intensivləşdirərək xarici əlaqələrini genişləndirib, Şərqlə Qərb arasında körpü rolunu uğurla yerinə yetirir. Əlbəttə ki, bütün bunlar Azərbaycanın müstəqil dövlət olaraq gücünü daha da artırır.

Azərbaycanın xarici siyasətinin səciyyəvi xüsusiyyətlərindən biri ikitərəfli və çoxtərəfli əlaqələrin mütəmadi olaraq genişlənməsidir. Azərbaycan ikitərəfli və çoxşaxəli əlaqələrin sırf beynəlxalq hüquq normaları və milli maraqlar əsasında davam və inkişaf etdirilməsinin tərəfdarıdır. Ötən müddət ərzində həyata keçirilən siyasətin, görülən tədbirlərin nəticəsi kimi, Azərbaycanın mövqeyi beynəlxalq müstəvidə nəzərə alınır, ölkəmizlə əməkdaşlıq əlaqələri gücləndirilir. Azərbaycan bütün məsələlərdə, xüsusilə də Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində prinsipial, qətiyyətli mövqe nümayiş etdirir...

***- Yeri gəlmişkən, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasəti necə qiymətləndirirsiniz?***

- Cənab Prezident İlham Əliyev Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsinə dair Azərbaycan dövlətinin prinsipial mövqeyini hər zaman ən mötəbər tribunalardan qətiyyətlə ifadə edir. Dövlətimizin başçısı hər zaman bəyan edir ki, Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüquq normaları və Azərbaycanın ərazi bütövlüyü əsasında həllini tapmalıdır. Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə münaqişənin həlli ilə bağlı bütün görüşlərdə və danışıqlarda güclü siyasi iradə nümayiş etdirərək konfliktin nizamlanması yolunda konstruktiv fəaliyyət sərgiləyib, öz mövqeyini qəti və konkret surətdə ifadə edib.

Azərbaycan münaqişənin beynəlxalq hüquq normaları əsasında, ədalətli həllinə nail olmaq məqsədilə qlobal səviyyədə genişmiqyaslı iş aparır, beynəlxalq təşkilatlarla əməkdaşlığı genişləndirir. Müəyyən müddətdir ki, davam edən danışıqlar prosesində ölkəmiz nəinki öz həqiqətlərini dünyaya çatdıra bilib, həm də siyasi, diplomatik, iqtisadi və digər istiqamətlərdə işğalçı Ermənistan üzərində aşkar üstünlüyə nail olub. Digər sahələrdə olduğu kimi, ölkənin ərazi bütövlüyü məsələsində də Prezident İlham Əliyevin qətiyyətli və birmənalı mövqe sərgiləməsi bəzi xarici ermənipərəst qüvvələrin müxtəlif qərəzli niyyətlərini dəfələrlə iflasa uğradıb. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Azərbaycanın mövqeyi tamamilə aydın və birmənalıdır. Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş Dağlıq Qarabağ və 7 ətraf rayonu işğaldan azad edilməli, soydaşlarımızın yurd-yuvasına qayıtması və təhlükəsiz həyat şəraiti təmin olunmalıdır.

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasətin nəticəsidir ki, beynəlxalq təşkilatlarda Dağlıq Qarabağ problemi heç vaxt gündəmdən çıxarılmayıb. Ən əsası, Dağlıq Qarabağ məsələsini həll etmək üçün Azərbaycan Prezidenti ardıcıl siyasət həyata keçirir. Dövlətimizin başçısı Azərbaycanı yenidən qurur, ordumuzu gücləndirir, iqtisadiyyatı inkişaf etdirir. Yeni bütün bunlar torpaqlarımızın azad olunmasına xidmət edən işlərdir. BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzv olmağımız da, Avropa Şurasına sədrlik etməyimiz də Dağlıq Qarabağ münaqişəsinin həllinə xidmət edən məqamlar olub. Hər iki dövrdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsi prioritet olub. Bu gün də Azərbaycan həqiqətləri dünya ictimaiyyətinə müvəffəqiyyətlə çatdırılır, hücum diplomatiyası qətiyyətlə davam etdirilir. İnanırıq ki, Azərbaycan Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə işğal altında olan torpaqları azad edəcək - ölkəmizin ərazi bütövlüyü bərpa olunacaq.

***- Səməd müəllim, prezident seçkilərinin təbliğat-təşviqat kampaniyası çərçivəsində seçicilərlə görüşlərdə iştirak edirsiniz. İnsanların seçki əhval-ruhiyyəsi necədir?***

- Prezident seçkilərinin təbliğat-təşviqat kampaniyası çərçivəsində seçicilərlə keçirilən görüşlərdə insanlarda yüksək seçki əhval-ruhiyyəsi hiss edilir. Seçicilər birmənalı şəkildə möhtərəm Prezidentimiz İlham Əliyevi dəstəklədiklərini bildirir, Onun rəhbərliyi ilə həyata keçirilən siyasətin inkişafa, yüksəlişə və tərəqqiyə xidmət etdiyini vurğulayırlar. Görünən odur ki, Azərbaycan xalqının seçimi birmənalı şəkildə cənab İlham Əliyevdir. Ümumiyyətlə, ölkəmizin gələcək inkişafı və inamlı sabahı üçün 11 aprel seçkilərində cənab İlham Əliyevə səs verməliyik. Cənab İlham Əliyevə səs verməklə biz Azərbaycanın uğurlu gələcəyinə səs vermiş oluruq.

# Xalq İlham Əliyevə "HƏ" deyir!

**Əvvəli-Səh-11**




Rayon təşkilatının sədri əlavə edib ki, Azərbaycan vətəndaşları, o cümlədən, xaçmazlılar Yeni Azərbaycan Partiyasının Sədri Cənab İlham Əliyevi alternativsiz Lider kimi qəbul edir, Onun uğurla davam etdirdiyi siyasi və iqtisadi islahatlar kursunu tam dəstəkləyirlər. Rayon təşkilatının sədri Azərbaycanın gələcək inkişafı naminə seçiciləri Cənab İlham Əliyevə səs verməyə çağırıb.



Tədbirdə kənd seçicilərindən Dilda Mövlanova, Elşən Ağayev, Eyyub Haşımov, Əli Mustafayev, Cəmil Ocaqov, Yaşar Rzayev, Mehman İbrahimov, Mətanət Varangi, Alim Şıxbalayev və başqaları çıxış edərək, ölkəmizin dinamik inkişafını təmin edən Ulu Öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı, Azərbaycana beynəlxalq aləmdə böyük nüfuz qazandıran Cənab İlham Əliyevin namizədliyini dəstəkləyərək, Onun ətrafında sıx birləşdiklərini bildiriblər. Qeyd olunub ki, xaçmazlılar seçki günü hamı bir nəfər kimi məntəqələrə gələcək və xalqımızın layiqli oğluna - Cənab İlham Əliyevə səs verəcəklərini bildiriblər.



# 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü kimi qeyd edilir

## Ümummilli Liderimiz Heydər Əliyev həmin tarixi Azərbaycanlıların Soyqırımı Günü kimi əbədiləşdirdi

***Birinci Dünya müharibəsi, Rusiyada baş vermiş 1917-ci il fevral və oktyabr çevrilişlərindən məharətlə istifadə edən ermənilər öz iddialarını bolşevik bayrağı altında reallaşdırmağa nail oldular. 1918-ci ilin mart ayından etibarən "Əksinqilabçı ünsürlərlə mübarizə" şüarı altında Bakı Kommunası tərəfindən ümumən, Bakı quberniyasını azərbaycanlılardan təmizləmək məqsədi güdən mənfur plan həyata keçirilməyə başlandı. Həmin günlərdə ermənilərin törətdikləri cinayətlər Azərbaycan xalqının yaddaşına əbədi həkk olunmuşdur.***




Təkcə azərbaycanlıların soyqırımına məruz qalması faktı deyil, eləcə də, XX əsrin ortalarında məruz qaldığımız dəhşətli deportasiya aktları, əsrin sonundakı 20 Yanvar və Xocalı faciələri və digər bir sıra məsələlər vardır ki, özünün həqiqi qiymətini, məhz Ulu Öndər Heydər Əliyevin siyasi müdrikliyi, vətəndaş məsuliyyəti və lider qətiyyəti nəticəsində ala bilmişdir. Gənc müstəqil Azərbaycan dövlətinə Ümummilli Liderimizdən əvvəl rəhbərlik edən siyasətçilər, nəinki həmin hadisələrə siyasi-hüquqi qiymət verilməsinə nail olmuş, hətta bu istiqamətdə sadə bir cəhd də etməmişdilər. Məhz ona görə də, Ulu Öndərin "Azərbaycanlıların soyqırımı haqqında" 26 mart 1998-ci il tarixli Fərmanı milli tariximizin ən dəyərli sənədlərindən biri kimi qiymətləndirilir. Fərmanının preambulasında qeyd edilir ki, Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra xalqımızın tarixi keçmişinin obyektiv mənzərəsini yaratmaq imkanı əldə edilmişdir. Uzun illər gizli saxlanılan, üzərinə qadağa qoyulmuş həqiqətlər açılır, təhrif edilmiş hadisələr özünün əsl qiymətini alır. Xalqımıza qarşı dəfələrlə törədilmiş və uzun illərdən bəri öz siyasi-hüquqi qiymətini almamış soyqırımı da tarixin açılmamış səhifələrindən biridir. 1813-cü və 1828-ci illərdə imzalanan "Gülüstan" və "Türkmənçay" müqavilələri Azərbaycan xalqının parçalanmasının, tarixi torpaqlarımızın bölünməsinin əsasını qoymuşdu.

Xatırladaq ki, azərbaycanlıların həmin milli faciəsinin davamı kimi onun torpaqlarının zəbti başlanmış, qısa müddətdə bu siyasət gerçəkləşdirilərək ermənilərin kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülməsi həyata keçirilmişdi. İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazilərində məskunlaşdırılan ermənilər orada yaşayan azərbaycanlılarla müqayisədə azlıq təşkil etmələrinə baxmayaraq, öz havadarlarının himayəsi altında "Erməni vilayəti" adlandırılan inzibati bölgünün yaradılmasına nail oldular. Belə süni ərazi bölgüsü ilə, əslində, azərbaycanlıların öz torpaqlarından qovulması və məhv edilməsi siyasətinin bünövrəsi qoyuldu. Daha sonra isə "Böyük Ermənistan" ideyaları təbliğ olunmağa başlandı.

Qafqaz tarixində uydurma dövlət kimi tanınan Ermənistanın Azərbaycan torpaqlarında yaradılmasına "bəraət qazandırmaq məqsədilə" erməni xalqının tarixinin saxtalaşdırılmasına yönəlmiş genişmiqyaslı proqramlar reallaşdırılmışdı. Azərbaycanın və ümumən Qafqazın tarixinin təhrif olunması həmin proqramların mühüm tərkib hissəsini təşkil edirdi. "Böyük Ermənistan" yaratmaq xülyasından ruhlanan erməni qəsbkarları 1905-1907-ci illərdə azərbaycanlılara qarşı açıq şəkildə genişmiqyaslı qanlı aksiyalar həyata keçirdilər. Ermənilərin Bakıdan başlanan vəhşilikləri bütün Azərbaycanı və indiki Ermənistan ərazisindəki Azərbaycan kəndlərini əhatə etdi. Yüzlərlə yaşayış məntəqəsi dağıdılıb yerlə yeksan edildi, minlərlə azərbaycanlı vəhşicəsinə qətlə yetirildi.

Həmin tarixi saxtalaşdırmaların təşkilatçıları məsələnin mahiyyətinin açılmasına, ona düzgün hüquqi-siyasi qiymət verilməsinə maneçilik törədərək, azərbaycanlıların mənfi obrazını yaratmış, özlərinin avantürist torpaq iddialarını pərdələmişlər. Minlərlə dinc azərbaycanlı əhali yalnız milli mənsubiyyətinə görə məhv edilmişdir. Ermənilər evlərə od vurmuş, insanları diri-diri yandırmışlar. Milli-memarlıq incilərini, məktəbləri, xəstəxanaları, məscid və digər abidələri dağıtmış, Bakının böyük bir hissəsini xarabalığa çevirmişlər. Azərbaycanlıların soyqırımı Bakı, Şamaxı, Quba qəzalarında, Qarabağda, Zəngəzurda, Naxçıvanda, Lənkəranda və Azərbaycanın başqa bölgələrində xüsusi qəddarlıqlarla həyata keçirilmişdir. Bu ərazilərdə dinc əhali kütləvi surətdə qətlə yetirilmiş, kəndlər yandırılmış, milli mədəniyyət abidələri dağıdılıb məhv edilmişdir.

Bu da tarixi faktdır ki, Azərbaycan Xalq Cumhuriyyəti yarandıqdan sonra 1918-ci ilin mart hadisələrinə xüsusi diqqət yetirmişdir. Nazirlər Şurası 1918-ci il iyulun 15-də bu faciənin tədqiqi məqsədilə Fövqəladə İstintaq Komissiyasının yaradılması haqqında qərar qəbul etdi. Komissiya mart soyqırımını, ilkin mərhələdə Şamaxıdakı vəhşilikləri, İrəvan quberniyası ərazisində ermənilərin törətdikləri ağır cinayətləri araşdırdı. Dünya ictimaiyyətinə bu həqiqətləri çatdırmaq üçün Xarici İşlər Nazirliyi nəzdində xüsusi qurum yaradıldı. 1919-cu və 1920-ci ilin mart ayının 31-i iki dəfə Azərbaycan Xalq Cumhuriyyəti tərəfindən Ümummilli Matəm Günü kimi qeyd edilmişdir. Əslində, bu, azərbaycanlılara qarşı yürüdülən soyqırımı və bir əsrdən artıq davam edən torpaqlarımızın işğalı proseslərinə tarixdə ilk dəfə siyasi qiymət vermək cəhdi idi.

Təəssüf ki, Azərbaycan Xalq Cümhuriyyətinin süqutu bu işin başa çatmasına imkan verməmişdi. Zaqafqaziyanın sovetləşməsindən öz çirkin məqsədləri üçün istifadə edən ermənilər 1920-ci ildə Zəngəzuru və Azərbaycanın bir sıra digər torpaqlarını Ermənistan SSR-in ərazisi elan etdilər. Sonrakı dövrdə bu ərazilərdəki azərbaycanlıların deportasiya edilməsi siyasətini daha da genişləndirmək məqsədilə yeni vasitələrə əl atdılar. Bunun üçün onlar SSRİ Nazirlər Sovetinin 23 dekabr 1947- ci il "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" xüsusi qərarına və 1948-1953-cü illərdə azərbaycanlıların öz tarixi torpaqlarından kütləvi surətdə deportasiyasına dövlət səviyyəsində nail oldular.

Azərbaycan torpaqlarında özünə dövlət yaratmış, həmin torpaqların tarixi sakinlərini qırğına və deportasiyaya məruz qoymuş erməni millətçiləri öz havadarlarının köməyi ilə 50-ci illərdən etibarən xalqımıza qarşı kəskin mənəvi təcavüz kampaniyasına başladılar. Keçmiş Sovet məkanında müntəzəm şəkildə yayılan kitab, jurnal və qəzetlərdə milli mədəniyyətimizin, klassik irsimizin, memarlıq abidələrimizin ən nəfis nümunələrinin erməni xalqına mənsub olduğunu sübut etməyə çalışırdılar. Eyni zamanda, onlar tərəfindən bütün dünyada azərbaycanlıların mənfi obrazını formalaşdırımaq cəhdləri də güclənirdi. "Yazıq, məzlum erməni xalq"ının surətini yaradaraq əsrin əvvəlində regionda baş verən hadisələr şüurlu surətdə təhrif olunur, azərbaycanlılara qarşı soyqırımı törədənlər soyqırımı qurbanları kimi qələmə verilirdi.

Ermənilərin Sovet rejimindən bəhrələnərək, həyata keçirdikləri və 80-cı illərin ortalarında daha da güclənən anti-Azərbaycan təbliğatına Azərbaycan Respublikasının rəhbərliyi vaxtında lazımi qiymət verməmiş, 1988-ci ildən ortaya atılan qondarma Dağlıq Qarabağ konfliktinin ilkin mərhələsində yüz minlərlə azərbaycanlının öz tarixi torpaqlarından qovulmasına da respublikada düzgün siyasi qiymət verilməmişdi. Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan SSR-in tərkibinə daxil edilməsi haqqında ermənilərin qeyri-konstitusiyon qərarını və Moskvanın, əslində, bu vilayəti Xüsusi İdarəetmə Komitəsi vasitəsilə Azərbaycanın tabeliyindən çıxarmasını xalqımız ciddi narazılıqla qarşıladı və mühüm siyasi aksiyalara əl atmaq məcburiyyəti qarşısında qaldı.

Respublikada keçirilən mitinqlər zamanı torpaqlarımızın işğalı siyasəti qətiyyətlə pislənsə də, Azərbaycan rəhbərliyi öz passiv mövqeyindən əl çəkməmişdi. Məhz elə bunun nəticəsi olaraq, 1990-cı ilin yanvar ayında getdikcə güclənən xalq hərəkatını boğmaq məqsədilə Bakıya qoşunlar yeridilmiş, yüzlərlə azərbaycanlı məhv və şikəst edilmiş, yaralanmış, digər fiziki təzyiqlərə məruz qoyulmuşdu. Bütün bunlara görə cəzasız qalan ermənilər 1992-ci ilin fevralında Xocalı şəhərinin əhalisinə misli görünməyən divan tutmuşdular. Tariximizə Xocalı soyqırımı kimi həkk olunan bu qanlı faciə minlərlə azərbaycanlının məhv edilməsi, əsir alınması, şəhərin yerlə yeksan edilməsi ilə qurtardı. Millətçi-separatçı ermənilərin Dağlıq Qarabağda başladığı avantürist hərəkətin nəticəsi olaraq, bu gün bir milyondan artıq soydaşımız erməni qəsbkarları tərəfindən öz doğma yurd-yuvalarından didərgin salınmış, çadırlarda yaşamağa məhkum edilmişdir.

Ərazimizin 20 faizinin erməni silahlı qüvələri tərəfindən işğalı zamanı minlərlə vətəndaşımız şəhid olmuş, xəsarət almışdır. Azərbaycanın XIX-XX əsrlərdə baş verən bütün faciələri torpaqlarının zəbti ilə müşayiət olunaraq, ermənilərin azərbaycanlılara qarşı düşünülmüş, planlı surətdə həyata keçirdiyi soyqırımı siyasətinin ayrı-ayrı mərhələlərini təşkil etmişdir. Bu hadisələrin yalnız birinə - 1918-ci il mart qırğınına siyasi qiymət vermək cəhdi göstərilmişdir.

Ümummilli Lider Heydər Əliyevin imzaladığı Fərmanda qeyd edilir ki, Azərbaycan Xalq Cumhuriyyətinin varisi kimi Azərbaycan Respublikası bu gün onun axıra qədər həyata keçirə bilmədiyi qərarların məntiqi davamı olaraq, soyqırımı hadisələrinə siyasi qiymət vermək borcunu tarixin hökmü kimi qəbul edir və həmin vəzifələri gerçəkləşdirir.

***Əli Abdullayev,***
***Rüfət Sultanov***
***Ədliyyə Nazirliyi, Məhkəmə Ekspertizası Mərkəzinin əməkdaşları***

## "Nar" Novruz bayramını cəbhə bölgəsindəki əsgərlərlə qeyd etdi

"Nar" Novruz bayramı ərəfəsində daha bir əhəmiyyətli sosial layihəyə imza atdı. Milli önəm kəsb edən məsələləri diqqət mərkəzində saxlayan "Nar" Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə birgə cəbhəboyu zonada yerləşən hərbi hissələrdən birinə səfər edərək Azərbaycan Ordusunun əsgərləri ilə görüş keçirdi.




Görüş zamanı hərbi hissədə xidmət edən əsgərlərə xüsusi sürpriz hazırlanmışdı. Belə ki, "Nar"-ın dəstəyi ilə ölkəmizin müxtəlif bölgələrindən 100-dən çox valideynin cəbhə bölgəsində yerləşən "N" nömrəli hərbi hissəyə gəlişi təşkil edilmişdi. Müdafiə Nazirliyi ilə birgə həyata keçirilən bu bayram sürprizi nəticəsində valideynlər cəbhədə xidmət göstərən övladları ilə bərabər Novruz bayramını qeyd etdi. Görüşdə iştirak edən "Azerfon" şirkətinin ictimaiyyətlə əlaqələr üzrə rəhbəri Əziz Axundov öz çıxışında milli adət və ənənələrin təşviqi, vətənpərvərlik kimi dəyərlərin "Nar" brendinin əsas amallarından olduğunu bildirib.

"Azərbaycan əsgəri bizim güvənc yerimiz, qürur mənbəyimizdir. Novruz bayramı ərəfəsində əsgərlərimizlə birlikdə olmaq bizim mənəvi borcumuzdur. Vətənin keşiyində duran qəhrəman əsgərlərimizi təbrik edir, onlara bu şərəfli yolu uğurla başa vuraraq tezliklə yaxınlarına, sevdiklərinə qovuşmalarını arzu edirəm", - deyə cənab Axundov qeyd edib. Tədbir zamanı xüsusi konsert proqramı təşkil edilməklə yanaşı əsgərlərə "Nar"-dan xüsusi hədiyyələr, o cümlədən, 200-dən çox kitab hədiyyə olundu. Qeyd edək ki, Azərbaycan Silahlı Qüvvələrinin yaranmasının 100-cü ildönümü ərəfəsində təşkil edilən görüşün məhz zəngin adət-ənənələrimizi tərənnüm edən Novruz bayramında keçirilməsi şanlı ordumuzun gecə-gündüz vətən keşiyində duran qəhrəman əsgərlərini sevindirmək, onlara olan dərin hörməti bir daha əyani şəkildə çatdırmaq məqsədi daşıyırdı. "Azerfon" MMC 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim etmiş və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib.

www.sesqazeti.az
facebook Ses Media Holding

# "İŞİD"i Azərbaycana dəvət edən İnqilab Kərimovun 30 milyonluq etirafı

*Və ya Əli Kərimlinin əmisi oğlu azərbaycanlı xanımı niyə təhqir edir?*






Xatirinizdədirsə, AXCP sədri Əli Kərimlinin Fransada yaşayan əmisi oğlu İnqilab Kərimov, bir neçə il öncə, sosial şəbəkə vasitəsi ilə on minlərlə insanı vəhşicəsinə qətlə yetirən "İŞİD"


Inqlab Kerimov
15 Avqust saat 01:31 · Düzəliş edildi ·

İŞİD hecdə hər adamin başini kesmir...İŞİD 5 manata sifarişlə məhkemə zalini dolduranlarin başini kesir...İŞİD adini dindar qoyub,cindarliqla məşgul olanlarin başini kəsir....İŞİD adini müxalifər qoyub,nazirliklərə dal qapidan girib,cixanlarin başiini kesir...Və düşünürem ki,düz də edir...Əgər beledirsə onda Azərbaycana XOŞ gəlirsən İŞİD...

Paylaş

Orxan Valehli və başqa 61 nefer bunu bəyənir.

terror təşkilatını Azərbaycana dəvət edərək, baş kəsməyə çağırmışdı. Özünü "lider" adlandıran bir kəsin tərəfdarı və yaxın qohumu olanın sosial şəbəkə vasitəsi ilə hər hansı qanlı cinayətkar təşkilatı qan tökməyə çağırması, bir daha sübut edir ki, belələrinin xisləti sadəcə və sadəcə (!) qisasçılıq, eləcə də, çirkin siyasət qurmaq üzərində qurulub.




### İlham Əliyev Cənablarının belə bir nəhəng dəstəyə sahib olması, əslində, anti-Azərbaycan dairələrin nökərləri olan həmin qruplara güclü zərbə təsiri bağışlayıb

Lakin biz, həmin məsələni yenidən xatırlatmaqla bu günlərdə cərəyan edən digər bir olayı da hörmətli oxucularımızın nəzərlərinə çatdırmaq istərdik. Məsələ isə budur ki, Avropada yaşayan bəzi "siyasi mühacirlərin", xəyanətkar qrupun narahatlıqlarına səbəb, bir müddət əvvəl, Alman-Azərbaycan Dostluq Cəmiyyətinin sədri Naibə Hacıyevanın həmin ölkədə Cənab İlham Əliyevin şəkillərini yaşayış massivlərinin ən gur yerlərində təbliğ etməsi olub. Daha dəqiq desək, bu gün bütün dünya azərbaycanlılarının dəstəklədiyi və xalqın vahid lideri olaraq qəbul etdiyi İlham Əliyev Cənablarının belə bir nəhəng dəstəyə sahib olması, əslində, anti-Azərbaycan dairələrin nökərləri olan həmin qruplara güclü zərbə təsiri bağışlayıb. Görünür, bu baxımdan, vaxtilə "İŞİD" terror qruplaşmasını Azərbaycana dəvət edən Ə.Kərimlinin əmisi oğlu İ.Kərimov yenidən daxilindəki qisasçılıq hisslərini üzə çıxarıb və söz yox ki, onun bu cür cəlladlıq prinsiplərindən elə AXCP sədrinin də xəbəri var.

### Naibə Hacıyevanın dövlət maraqlarından çıxış edərək, Vətən sevdalısı olması, bilavasitə Vətən xainlərini qıcıqlandırıb

Digər maraqlı məsələlərdən biri də budur ki, N.Hacıyevanın dövlət maraqlarından çıxış edərək, Vətən sevdalısı olması, bilavasitə Vətən xainlərini qıcıqlandırıb. Bu səbəbdən, sosial şəbəkədə təhqirləri, söyüşləri ilə bir xanıma (!) yönəldən Ə.Kərimlinin terror həvəskarı olan əmisi oğlu daxilindəki rüsvayçı hissləri bir daha ifşa edib.

Digər maraqlı nüans, İ.Kərimovun vaxtilə 30 milyonluq maddi vəsaitə, gəmiyə və böyük dükanlara sahib olduğu onun özü tərəfindən etiraf olunur. Bu zaman belə bir sual yaranır: o, bu vəsaitləri necə, haradan və kimdən əldə edib? Biznesinin qurulmasında maddi yardımları haradan qazanıb? Məgər Azərbaycanda olduğu dövrlərdə də Ə.Kərimlinin müdafiəçisi olaraq çıxış etməyibmi? Məsələ ondadır ki, bu kimi sualların sayını da artırmaq olar. Lakin İ.Kərimov barədə digər məlumatları gələn yazımızda diqqətinizə çatdıracağıq.

Biz müvafiq olmayan qeyri-etik ifadələrin bir hissəsini pozaraq, onların bir qismini oxuculara təqdim edirik.

**Rövşən NURƏDDİNOĞLU**

# Milli xain Tural Sadıqlı haqqında hansı faktlar üzə çıxdı?

*Yaxud övladına sahib çıxmayan, ailəsinin dağılmasına, bir insanın isə ölümünə səbəb olan "ədalət carçısı"*

Bir neçə müddətdir ki, Avropa küçələrində müxtəlif "aksiyalarla" Azərbaycanın dövlət maraqlarına və atributlarına qarşı hörmətsizlik sərgiləyən "siyasi mühacirlərin" gah bu, gah da digər hallarda "sosial və siyasi ədalət" axtarışına çıxmaları onlar barədə bəzi araşdırmalar aparmağıma səbəb oldu. Daha dəqiq desəm, sosial şəbəkədə minbir cür hoqqalardan çıxıb, məhz həmin vasitələr hesabına daimi oturum izni almaq üçün bəlli məqsədli dairələrin nökərlərinə çevrilənlər yığınağı, sən demə, nə "aydan arı, nə də sudan duruymuşlar"... Özlərini "süddən çıxmış ağ qaşıq" hesab edənlərdən biri də Bakıda ailəsinin normal biznes qazancı, istirahət-əyləncə kompleksi olan Orduxan Bəbirovun (Teymurxanın) yandaşı Tural Sadıqlıdır. Bəs araşdırmalar nəticəsində, bu şəxs haqqında əldə etdiyim detallar hansılardır? Elə isə Almaniyada yaşayan bir azərbaycanlı mənbənin verdiyi səhih məlumatlar çərçivəsində apardığım qeydlərə diqqət yetirək.

### Tural Sadıqlı evlənəcəyi qızın ailəsinə Almaniyada daimi oturum izni olduğunu yalan söyləyib!

Deməк, T.Sadıqlı hələ 2 il öncə, Almaniyanın Nürenberq şəhərində qaçqın statusunda yaşayarkən, bir xoşməramlı ailə onu, necə deyərlər, "baş-göz" etmək, yəni evləndirmək qərarına gəlib. Bu məqsədlə, Sadıqlını evləndirmək istəyən ailə Moskvada yaşayan digər dost ailənin qızını onunla tanış ediblər və nədənsə, Tural qızın ailəsinə Almaniyada daimi yaşayış izni olduğunu yalan söyləyib (?!-R.R.). Halbuki o, bu yalanı ilə başqa bir ailənin heysiyyatı ilə oynayıb və qızı Nürenberqə gətirəndən sonra onu qaçqın statusu ilə düşərgəyə yerləşdirib. Düzdür, o, toy da edib, həmin qızla evlənib də...Amma..!

### Həyat yoldaşı dörd aylıq hamiləykən, ondan ayrılmaq qərarına gəlib - səbəbi döyülərək, iki dəfə xəstəxanalıq olması və s. hadisələrdir

Evləndiyi gündən özünə həyat yoldaşı etdiyi həmin qıza gün-güzəran verməyən T.Sadıqlı, demə, həyatda özünü "mülayim" göstərdiyi kimi insan da deyilmiş. Buna sübut kimi, Turalın hər gün onu döyməsi və nəticədə, yoldaşının iki dəfə xəstəxanaya düşməsi faktını göstərmək olar. Belə davam edə bilməyəcəyini görən xanım, Turaldan ayrılmaq qərarını verib, özü də dörd aylıq hamilə (!) olduğu vəziyyətdə...



Sonrakı məqamlara da diqqət yetirək. Belə ki, T.Sadıqlıdan ayrılan xanımına Almaniya dövlətinin müvafiq qurumları və Nürenberqdə yaşayan azərbaycanlı ailələr dəstək olublar. Çünki onun ailə üzvləri bu gün də Rusiya vətəndaşlarıdırlar və Moskva şəhərində yaşayırlar.

### Keçmiş arvadının atasının ölümünə baiskar da Tural Sadıqlıdır!

Dəhşətli məqam isə budur ki, qız övladının ailə bədbəxtçiliyinə, daha doğrusu, T.Sadıqlının öz həyat yoldaşının başına gətirdiyi oyunlarına dözə bilməyən qız atası baş verən hadisələrdən sonra kəskin infarkt keçirir və 42 yaşında həyatını itirir. Ancaq bir ailənin taleyinə bu qədər mənəvi və fiziki zərbələr vuran T.Sadıqlının baş verənlərdən "tükü belə tərpənmir"!

Beləliklə, insanların taleyi ilə oynayan, hətta ölümə baiskar olan T.Sadıqlı hələ də daimi oturum izni ala bilməyib. Çünki onun keçmiş həyat yoldaşı ondan bir qız övladı dünyaya gətirsə də, Almaniya hökumətinin müvafiq qurumlarından Turalı atalıqdan məhrum edən sənəd alıb. Əlbəttə ki, burada T.Sadıqlının onu iki dəfə möhkəm döyərək, xəsarətlər yetirərək, xəstəxanaya yerləşdirilməsindən tutmuş, digər bəd əməlləri onun daimi oturum izni almaq şansını sıfıra endirib. İndi də həmin izni ala bilməyən T.Sadıqlı yenidən övladına atalıq haqqı almaq üçün məlum əməllərə əl ataraq, kimlərinsə sifarişlərini həyata keçirir. Ancaq söz yox ki, ondan ayrılan sabiq həyat yoldaşı buna imkan verməyəcəyini deyir. Çünki T.Sadıqlının digər əməllərini kənara qoyaraq, təkcə həmin xanımın atasının ölümünə səbəb olduğu bir insan övladının "ata" deyə müraciət etməsi ən ağır mənəvi zərbə hesab edilə bilər.

Nəticədə, biz, bu gün Avropada "siyasi mühacir" adı altında çirkin məqsədlərə xidmət edənlərdən, yalnız biri haqqında araşdırma apararaq, həmin şəxsin necə "insan" olduğunu ortaya qoyduq. Yerdə qalan digərləri haqqında da bildiklərimizi və öyrəndiklərimizi dəyərli oxucularımızla bölüşəcəyik.

**Rövşən Rəsulov**

## Elçin Mirzəbəyli: "Soyqırımı günahkarlarını məhkəməyə cəlb edə bilərik"



"Ümumiyyətlə nəzərə almaq lazımdır ki, erməni diasporu dünyanın müxtəlif ölkələrinə səpələnib". Bunu SİA-ya açıqlamasında siyasi şərhçi Elçin Mirzəbəyli deyib. Siyasi şərhçinin sözlərinə görə, erməni diasporunun bütün həyatı, fəaliyyəti qondarma soyqırım iddiaları üzərində qurulub: "Ermənilər bundan biznes vasitəsi kimi istifadə edirlər, həm də mövcudluqlarını qoruyub saxlamaq üçün bir element kimi yararlanırlar. Bu aspektdən də nəzərə almaq lazımdır ki, Azərbaycanda diaspor gəncdir. Ona görə də Ermənistan tərəfindən mütəmadi olaraq bu cür təxribat xarakterli addımlar atılır. Şübhə etmirəm ki, zamanı gələndə həm 31 Mart soyqırımı, həm də Xocalı soyqırımı ilə bağlı beynəlxalq ictimaiyyətə Azərbaycan həqiqətləri haqqında məlumatlar tam çatdıra biləcəyik. Təəssüf ki, hazırda 31 Mart soyqırımı ilə bağlı suçlular yoxdur. Amma biz Xocalı soyqırımının günahkarlarını məhkəməyə cəlb edə bilərik. Bunun üçün də bütün imkanlar var. Ümid edirəm ki, bu istiqamətdə atılan addımlar güclənərsə, təbii ki, günahkarlar da öz cəzalarına çatacaqlar. Ermənilərin cavabını verməyin ən əsas yolu Azərbaycan torpaqlarının işğaldan azad edilməsidir".

# Seçki sistemi və hüququna dair dünya təcrübəsindən

***Seçkilərdə yalnız iki iri siyasi partiyanın mübarizə apardığı ölkənin vətəndaşı başqa ölkədə partiyaların "rəngarəngliyini" xaos kimi qiymətləndirər. Çoxpartiyalılığa vərdiş etmiş vətəndaş üçün vur-tut iki partiya arasında seçim etmək zərurəti buxov kimi görünə bilər. Əgər onlardan hər biri başqa ölkənin partiya sistemini daha dərindən öyrənməyə başlasa, aşkara çıxan fərqlər onları tamam dolaşığa sala bilər.***

Bütün bu variantlardan necə baş çıxarmalı? Elə hesab etmək olarmı ki, bir qisim seçki və partiya sistemi o birilərdən demokratikdir, yaxud onları digər məsələlərdə üstələyir?

Seçki sistemlərində olan əsas fərqlərdən başlayaq.

Robert Dahl yazır: "Seçki sistemləri sonsuzluğa qədər müxtəlifdir. Bunun səbəblərindən biri ondan ibarətdir ki, heç bir seçki sistemi qiymətləndirmə üçün seçdiyiniz bütün meyarlara uyğun gələ bilməz. Hər yerdə olduğu kimi, buranın da öz kompromisləri var. Hansısa bir sistemi seçərkən, biz müəyyən dəyərləri o biri dəyərlərin itkisi hesabına əldə edirik. Nə üçün belə olur? Cavab həddən artıq uzun olmasın deyə, diqqəti çox geniş imkanların yalnız ikisi üzərində cəmləməyə çalışacağam.

Proporsional nümayəndəlik sistemi "Qocaman demokratiya" ölkələrində ən geniş yayılmış seçki sistemi - seçkilərdə bu və ya digər partiyaya verilmiş səslərin miqdarı ilə bu partiyanın parlamentdə alacağı yerlərin (mandatların) miqdarı arasında mümkün qədər tam uyğunluğa nail olmaq üçün yaradılmış seçki sistemidir. Məsələn, səslərin 53 faizini toplamış partiya yerlərin 53 faizini almalıdır. Bu sistemi, adətən, proporsional nümayəndəlik (PN) sistemi adlandırırlar.

Hamısı qalibə çatır. Əgər proporsional nümayəndəlik sistemi ədalətli nümayəndəlik sistemi meyarını təmin etmək üçün yaradılmışsa, onda güman etmək olar ki, onu bütün demokratik ölkələr qəbul etməlidir. Lakin bu, belə deyil. Elə ölkələr var ki, seçkilərdə ən çox səs toplamış partiyaya parlamentdə yerlərin sayını xeyli çoxaltmağa imkan yaradan seçki sisteminə üstünlük verirlər. Məsələn, seçicilərin 53 faizinin səs verdiyi partiya yerlərin 60 faizini ala bilər. Seçki sisteminin Böyük Britaniya və Amerika Birləşmiş Ştatlarında qəbul edilmiş bu variantında hər bir dairədən bir namizəd seçilir və ən çox səs toplamış şəxs qalib gəlir. Cıdır yarışları analogiyası üzrə bu sistem bəzən "hamısı qalibə çatır" adlanır".

Yuxarıda qeyd etdiyim kimi, hansı seçki sisteminin "azad və ədalətli" seçkilər tələbini daha çox dərəcədə təmin etməsi barədə mübahisələr hələ də davam edir. "Hamısı qalibə çatır" sistemi üzrə keçirilən seçkiləri heç cür "ədalətli" hesab etmək olmaz, çünki burada bərabər nümayəndəlik şərtinə əməl olunmur. Məsələn, 1997-ci ildə İngiltərədə parlament seçkilərində leyboristlər partiyası mandatlarının 64 faizini əldə etmişdi - müasir parlamentarizm tarixində heç kim bu cür əksəriyyətə nail ola bilməmişdi, özü də bu zaman leyboristlər partiyasına seçicilərin cəmi 44 faizi səs vermişdi. Mühafizəkarlar partiyası, müvafiq olaraq, 31 faiz səs və 25 faiz mandat əldə etmişdi. Seçicilərin 17 faizinin dəstək verdiyi liberal-demokratlar isə vur-tut 7 faiz yer qazana bilmişdi! (Digər partiyalardan olan namizədlər 7 faiz səs və 4 faiz yer almışdılar).

R.Dahl göstərir ki, ABŞ-da bu cür sistem majoritar sistem adlanır, belə ki, səslərin nisbi əksəriyyətini (tam əksəriyyət vacib deyil) qazanmış namizəd qalib sayılır. Politoloqlar bunu "birmandatlı dairələrdə majoritar sistem üzrə seçkilər" adlandırırlar, əlbəttə, bu, daha dəqiq ifadədir, lakin çox uzundur. "Hamısı qalibə çatır" ifadəsi İngiltərədə standarta çevrilib və mən sonrakı səhifələrdə, məhz bu ifadəni işlədəcəyəm. Yaxşı, bəs bu və ya digər partiyaya verilmiş səslərin sayı ilə onun parlamentdə aldığı yerlər arasında fərq haradan gəlir? Təsəvvür edək ki, hansısa kiçik demokratik birliyin min nəfər üzvü var və onlar 10 seçki dairəsi arasında bərabər sayda bölünüblər və bu dairələrin hər birindən bir nümayəndə qanunverici orqana seçilir. Fərz edək ki, 510 seçici (və ya seçicilərin 51 faizi) hansısa "göylər" partiyasına, 490 (və ya 49 faiz) seçici isə "qırmızılar" partiyasına səs verir. İndi də fərz edək ki, (baxmayaraq ki, bu az inanılasıdır), bu demokratik mini-dövlətin 10 dairəsinin hər birində səslər tamamilə bərabər bölünür: "göylər" səslərin 51 faizini, "qırmızılar" isə 49 faizini alır. Bu halda, seçkilərin nəticələri necə olacaqdır? "Göylər" bütün dairələrdə qalib gəlir və deməli, parlamentdə mandatların 100 faizini və "tam əksəriyyəti" əldə edə bilir. Siz bu sistemi bütün ölkəyə yaya və dairələrin sayını bir neçə dəfə artıra bilərsiniz. Nəticə eyni olacaqdır.

Sağlam məntiq şübhə yeri qoymadan göstərir ki, bu cür şərtlər daxilində heç bir dövlət sistemini qəbul etməz. Bu qeyri-adi və tamamilə qeyri-demokratik nəticənin qarşısını yalnız bir amil saxlayır: bu və ya digər partiyaya verilən dəstək ölkə üzrə qeyri-bərabər bölünür: bəzi dairələrdə "göylər" səslərin 65 faizini qazandığı halda, digərlərində güclə 40 faiz səs toplaya bilər və o zaman səslərin qalan 60 faizi "qırmızılara" çatar.

Seçki sisteminin ədalətli nümayəndəliyin yararlı olması üçün partiyalara dəstək verilməsi ölkə üzrə bərabər bölünməməlidir. Çünki o, nə qədər bərabər bölünmüş olsa, səslərin sayı ilə parlamentdə yerlərin sayı arasında fərq bir o qədər böyük olacaqdır. Bu cür tənasübsüzlük regional səviyyədən ölkə miqyaslarına qədər genişlənmiş olsa (1971 -ci ildə Böyük Britaniyada olduğu kimi), o zaman, sisteminin doğurduğu təhrif daha da artacaqdır.

Belədirsə, onda nə üçün seçki sisteminin tətbiq edildiyi demokratik ölkələr sisteminə keçmirlər?

İlk növbədə, Böyük Britaniya və ABŞ kimi ölkələrdə tarixi halların və ənənələrin təsiri nəzərə alınmalıdır, belə ki, bu ölkələrdə seçki nümayəndəlik sistemi təşəkkül tapdığı andan üstünlük qazanmışdır. Ən inandırıcı nümunələri də ABŞ-dadır. Amerikanın seçki sistemi ştatların qanunverici orqanlarında və konqresdə ədalətli nümayəndəlik qaydasını pozmaqla, afro-amerikalı azlığın böyük hissəsinin hüquqlarını məhdudlaşdıra bilər. Buna görə, afro-amerikalı seçicilərin ştatlararası legislaturalarına və Nümayəndələr Palatasına heç olmasa bir neçə nümayəndəsini göndərə bilməsi üçün qanunverici orqanlar və məhkəmələr bəzən qəsdən seçki dairələrini bu hesabla "biçib-kəsirlər" ki, afro-amerikalıların əksəriyyətdə ola biləcəyi müəyyən zona yaratsınlar. Bəzən bu cür dairənin coğrafiyasının iqtisadiyyata və ya tarixə heç bir dəxli olmur. Seçki sistemi zamanı isə afro-amerikalıların səs verdikləri namizədlər qanunverici orqanlarda öz saylarına uyğun (proporsional) təmsil oluna bilər: məsələn, seçicilərin 20 faizinin qaradərili olduğu ştatda mandatların təxminən 20 faizini, seçildikləri təqdirdə, afro-amerikalılar ala bilərlər.

Belədirsə, onda nə üçün seçki sistemini problemin ən optimal həlli hesab etməyək? Əsasən, ona görə ki, ABŞ-da bu sistemə mənfi münasibət elə dərin kök salmışdır ki, nə qanunverici orqanlar, nə də məhkəmələr onu hətta irqi ayrı-seçkiliyə şərait yaradan seçkiqabağı fəndə - bədnam "cerrimanderizm"ə qarşı azçox ciddi alternativ kimi nəzərdən keçirmək belə istəmirlər.

Sırf siyasi məqsədlər güdən "cerrimanderizm" və ya seçki dairələrinin özünəməxsus şəkildə "biçilib-kəsilməsi" təcrübəsi Amerika Birləşmiş Ştatlarında çoxdan tətbiq olunur. O öz adını Amerika Konstitusiya Konventinin üzvü Elbric Cerrinin soyadından alıb. 1812-ci ildə Massaçusets ştatının qubernatoru seçilmiş Cerri ştatın qanunverici yığıncağına seçkilər üzrə dairələrdə bu cür "kəsmə əməliyyatı" aparmış və bu, demokratların qalib gəlməsinə kömək etmişdir. Bu dairənin öz cizgiləri ilə, salamandraya oxşaması haqqında kiminsə qeydinə cavab olaraq, tənqidçilərdən biri demişdi: "Yox, o, daha çox Cerrimandraya oxşayır". Bu söz və ondan törəmə olanlar sonradan Amerika siyasi leksikonuna daxil olmuşdur. Yeri gəlmişkən, seçki sisteminə rəğbətin köklərini yalnız tarixdə axtarmaq düzgün olmazdı, bunun daha rasional izahı var, onun tərəfdarlarının nöqteyi-nəzərincə, bu sistem sayəsində təzahür edən tendensiya - qalib gəlmiş partiyanın hesabına parlament əksəriyyətinin genişləndirilməsi tendensiyası arzuolunan nəticələrə gətirib çıxarır. İkipartiyalı sistemi çoxpartiyalı sistemə qarşı, çox vaxt buna görə müdafiə edirlər ki, o, "üçüncü partiyalara" qarşı manevələr törədir və bununla da, ikipartiyalı sistemin meydana gəlməsinə kömək edir. Bunun əksinə olaraq, adətən, seçki sisteminin nəticəsi - çoxpartiyalı sistemdir. İngilis dilli ölkələrdə ikipartiyalı sistemə xüsusi dəstək verildiyi halda, çoxpartiyalı sistem hər cür tənqid olunur və alçaldılır. Hansı sistem yaxşıdır?

Çoxpartiyalı və ikipartiyalı sistemlərin müqayisəsiz məziyyətləri ətrafında çoxdandır ki, qızğın mübahisələr gedir, halbuki bu və ya digərinin üstünlüyü onların qüsurlarını da nümayiş etdirir. Məsələn, ikipartiyalı sistemin məziyyətlərindən biri ondan ibarətdir ki, seçicilərin seçki "yükünü" yüngülləşdirir, lakin seçki sistemi tərəfdarlarının fikrincə, məqbul alternatların bu cür kəskin azaldılması seçicilərin seçim azadlığına son dərəcə mənfi təsir göstərir. Onların dediyinə görə, seçki sistemi üzrə seçkilər azad sayıla bilər, lakin azlıqların nümayəndəlik hüququndan məhrum edilməsi səbəbindən, onu ədalətli hesab etmək olmaz. Effektli idarəetmə seçki sesteminin tərəfdarları bu sistemi, həm ona görə müdafiə edirlər ki, o daha bir perspektivə yol açır. Seçki sistemi parlamentdə qalib gəlmiş partiyanın nümayəndələrindən ibarət olan əksəriyyətin iddia etdiyi mandatların sayını artırmaqla, azlıqda qalan partiyaların koalisiyasının - əksəriyyətin proqramının və ya liderlərin təbirincə desək, "xalq etibarı mandatının" həyata keçirilməsinə qarşı sədd qoymaqla, qalib olan koalisiyanın yaradılmasına mane ola bilir.

Qanunverici orqanda öz partiyasının üzvlərindən ibarət genişləndirilmiş əksəriyyətə malik olan liderlər, adətən, öz proqramlarını, hətta onların partiyasından kiminsə müxalifətə keçdiyi halda da, həyata keçirmək imkanı qazanırlar. Beləliklə, seçki sistemi hökumətin effektivlik meyarına daha çox uyğun olmasına kömək etdiyi halda, bəzi ölkələrdə seçki sistemi parlamentdə ədavətdə olan və rəqabət aparan çoxsaylı partiyaların meydana gəlməsinə səbəb olur ki, bu da koalision çoxluğun formalaşdırılması işini çətinləşdirir və belə bir koalisiyanı yaratmaq mümkün olduqda da, onun sabitliyinə ümid etmək lazım gəlmir. Nəticədə, hökumətin effektivliyi kəskin azalır. Belə bir duruma misal olaraq İtaliyanı göstərmək olar.

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# səs

Son səhifə 29 mart


# Yevlaxlı seçicilər inamlı sabaha səs verəcəklər






***Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Yevlax rayon şöbəsinin təşviqat qrupunun üzvləri rayon seçiciləri ilə görüşlərini davam etdirirlər. Növbəti görüşdə YAP Yevlax rayon təşkilatının sədri, millət vəkili İlham Məmmədov çıxış edərək bildirib ki, son 15 ildə əldə olunan nailiyyətlər ölkədə sistemli şəkildə həyata keçirilən islahatlar nəticəsində, iqtisadi inkişaf modelinin təkmilləşdirilməsi, biznes və investisiya mühitinin yaxşılaşdırılması, kiçik və orta sahibkarlığa dövlət dəstəyinin gücləndirilməsi və regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsi sayəsində mümkün olub: "İnanıram ki, hər bir yevlaxlı seçici öz seçki hüququndan istifadə edərək, Yeni Azərbaycan Partiyasının namizədi, xalqın sevimlisi İlham Əliyev Cənablarına səs verəcəkdir."***

Çıxış edən YAP Yevlax rayon təşkilatının sədr müavini, aparat rəhbəri Əli Quliyev qarşıdan gələn prezident seçkiləri haqqında məlumat verərək, seçki günü hər bir seçicinin seçkiyə gəlməyinin vacibliyini vurğulayıb: "Hər bir azərbaycanlı kimi, yevlaxlıların da sosial vəziyyəti günbəgün yaxşılaşır və həyat səviyyəsi yüksəlir." Ə.Quliyev sonda rayon seçicilərini aprelin 11-də İlham Heydər oğlu Əliyevə səs verməyə çağırıb.

Tədbirdə çıxış edən təşviqat qrupunun üzvü YAP Yevlax rayon təşkilatı qadınlar şurasının sədri Əminə Əhmədova və seçicilərdən İlqar Əhmədov, Rafiq Məmmədov və Eldəniz Məmmədov bildiriblər ki, yevlaxlılar artıq öz seçimlərini ediblər. Bu seçim Cənab İlham Əliyevdr.


## ELAN

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Riyaziyyat müəllimliyi ixtisası üzrə II kurs tələbəsi Cavadova Lalə İsmi qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

x x x

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Kimya müəllimliyi ixtisası üzrə II kurs tələbəsi Abbaslı Aygün Habil qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

x x x

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Biologiya müəllimliyi ixtisası üzrə I kurs tələbəsi Həsənli Sara Elcan qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.





R

# Goranboy seçiciləri, birmənalı olaraq, "İlhamla irəli" deyirlər!




Yeni Azərbaycan Partiyası Goranboy rayon təşkilatının 11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkilərində partiya tərəfindən namizədliyi irəli sürülmüş Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində seçicilərlə görüşləri uğurla davam etdirilir. Rayonun Səfikürd, Tatarlı və Borsunlu kəndlərində keçirilən təbliğat kampaniyasında prezident seçkiləri ilə əlaqədar yaradılmış təbliğat qrupunun üzvləri və Milli Məclisin deputatı İlham Məmmədov iştirak edib.

Tədbiri YAP Goranboy rayon təşkilatının sədri Elçin İsmayılov açaraq, bildirdi ki, aprelin 11-də keçiriləcək Azərbaycan Respublikası Prezidentinin seçkiləri ölkəmizdə çox əlamətdar ictimai-siyasi hadisədir. Elçin İsmayılov Prezident İlham Əliyevin 15 il ərzində respublikada apardığı sosial -iqtisadi inkişafdan danışaraq, seçiciləri fəal olmağa və seçki günü məntəqələrə gələrək, İlham Heydər oğlu Əliyevə səs verməyə çağırıb. Tədbirdə Səfikürd kənd sakinləri - əməkdar müəllim İskəndər Səklikov, kənd ağsaqqalı Novruz Sadıqov, Mehdi Cabbarov, kənd axundu Elnur Cəfərov çıxış edərək, 11 aprel 2018-ci il prezident seçkilərində seçki məntəqələrinə gələrək yekdilliklə Cənab İlham Əliyevə səs verəcəklərini bildirdilər. Daha sonra tədbirdə Milli Məclisin deputatı İlham Məmmədov çıxış edərək respublikanın sürətli inkişafından seçicilərə məlumat verərək, bütün bunların Ulu Öndər Heydər Əliyev siyasətinin uğurlu davamı olaraq, qiymətləndirib və bu siyasətin davamına səs verməyə çağırıb.



# Tərtər seçiciləri öz seçimlərini ediblər




11 aprel 2018-ci il tarixdə keçiriləcək prezident seçkilərində Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində Tərtər rayonunda keçirilən tədbirlər uğurla davam etdirilir. Dünən növbəti tədbir Sarıcalı, Zolgörən kəndlərində mitinq-görüş xarakterində keçirilib. Tədbiri YAP rayon təşkilatı aparatının rəhbəri Kamil Məmmədov, Seydimli kəndində keçirilən tədbiri isə YAP rayon təşkilatının sədri Ramiz Şabanov giriş sözü ilə açıblar.

Görüşlərdə qeyd olunub ki, son illərdə Azərbaycan vətəndaşının sosial qayğıları, sağlamlığı və təhlükəsizliyin təmin olunduğu strateji xətdə uyğun olaraq, əhalinin həyat səviyyəsinin yüksəldilməsi, yoxsulluq səviyyəsinin aşağı salınması istiqamətində mühüm tədbirlər həyata keçirilib. Bütün bunlar, bilavasitə Cənab İlham Əliyevin ölkəyə rəhbərliyi nəticəsində əldə olunub. Tədbirlərdə Sarıcalı kənd sakinlərindən Ramiz Şirinov, Kamran Babayev, YAP Mərkəzi Seçki Qərargahının Tərtər rayon şöbəsinin təbliğat-təşviqat qrupnun üzvü, Çinmaz Nuriyeva, Zolgörən kənd sakinlərindən, Səttar Muradov, Ədibə Mustafayeva, Seydimli kənd sakinləri, Sayəddin Musayev, Hicran Hüseynova, Mənsumə Musayeva, Süreyya Hüseynova və Rasim Əliyev çıxış edərək, ölkə prezidentinin yürütdüyü daxili və xarici siyasətin xalq tərəfindən, birmənalı tərzdə dəstəklədiyini qeyd ediblər və 11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkilərində YAP-ın namizədi İlham Heydər oğlu Əliyevə səs verəcəklərini bildiriblər.




*Baş redaktor:*

**Bəhruz Quliyev**

*Baş redaktorun müavinləri:*

**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**